37_27 IYUl-QARA.qxd 10/24/2024 9:15 PM Page 1


# Unikal

№39 (2221) 25 oktyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Əliyevlə Paşinyanın Kazan görüşü:
## Sülh danışıqları ilə bağlı mühüm addım




Səh.2

## Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesi yeni mərhələyə qədəm qoyur

*Ermənistan parlamenti Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlamenti ratifikasiya edib. Bitərəf və əleyhinə səs verən olmayıb. Müxalifətin "Hayastan" və ""Şərəfim var" fraksiyaları müzakirə və səsvermədə iştirak etməyib. Qeyd edək ki, Azərbaycan və Ermənistan sözügedən əsasnaməni avqustun 30-da imzalayıb. Reqlament delimitasiya işlərinin təşkilini və müvafiq sənədlərin qəbulunu, dövlət sərhədinin kəsişməsinin protokol-təsvirinin tərtibini, müvafiq miqyaslı delimitasiya xəritəsinin tərtibini, ekspert qruplarının işini nəzərdə tutur. Bundan əlavə, sentyabrın 26-da Ermənistanın Konstitusiya Məhkəməsi Azərbaycanla sərhədlərin delmitasiyası üzrə işçi komissiyanın reqlamentinin qanunauyğun olduğuna dair qərar qəbul edib.*

Səh.9

## "Bu, sülhün qurulmasında ilk kiçik addım hesab edilə bilər"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Ermənistan parlamentinin Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlamenti ratifikasiya etməsindən, ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan və Ermənistan rəhbərlərinə məktub göndərməsindən...*

Səh.4

## Sahil Babayevə yoxlama şoku



*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yoxlamalar aparılacaq. Təftişin məqsədi nazirliyin keçirdiyi tenderlərlə bağlı ictimaiyyətə də məlum olan qeyri-şəffaflıq, qeyri-obyektivlik və şişirtmə barədə şübhələrdir. Bu barədə "Unikal" qəzetinə məlumatlı mənbələrdən informasiya daxil olub.*

Səh.8

## "İslahatlara ehtiyac var" - Emin Əmrullayev



*Ali təhsil müəssisələrində tədris olunan ixtisaslarla bağlı əsaslı islahatlara ehtiyac var və buna mütəmadi olaraq baxılmalıdır. "Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib. Nazir hökumətə təqdim olunan bakalavr və magistr üzrə ixtisasların yeni...*

Səh.3

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:16 PM Page 2



# "Necə ailədən çıxmışıq hamı bilir" - Təranə Qumralın qızı



***Təranənin müğənni qızı Qumral STV-nin efirində gözəlliyinin onun da başına bəla olduğunu bildirib.***

"Unikal" parol.az-a istinadla xəbər verir ki, Qumral "şarmlığımdan, gözəlliyimdən başım çox çəkib", - etirafı ilə təəccübləndirib. Gənc ifaçı qeyd edib ki, bəzi kişi xeylaqları onla münasibət qurmaq üçün dəridən-qabıqdan çıxırlar: "Bəzi bəylər özlərini nə sayır?! Onlar qoy özünü ağıllı hesab etsinlər, ancaq Qumu var ha, hamıda ağıllıdır. Baxışından bilirəm ağlından nə keçir. Yəni mən çox ağıllı qadınam. Çox ağıllıyam ki, bu yerə ağılnan, tərbiyə ilə, öz mədəniyyətimlə, hörmətimlə gəlib çıxmışam. Heç kim mənim arxamca heçnə danışa bilməz. Necə ailədən gəlmişik hamı bilir və necəyik, onu da hamı bilir. Bakı balaca şəhərdir".

# Ağadadaş Ağayev məhkəməyə gəlmədi



***Xalq artisti Ağadadaş Ağayevlə "MedEra Hospital" arasındakı insidentlə bağlı mülki iddia üzrə ilk məhkəmə baxış iclası keçirilib.***

"Unikal" oxu.az-a istinadən xəbər verir ki, Binəqədi Rayon Məhkəməsində hakim Etibar Mustafayevin sədrliyi ilə keçirilən prosesdə "MedEra Hospital"ın qanuni nümayəndəsi Sənan Şirinov iştirak etsə də, qarşı tərəf Xalq artisti Ağadadaş Ağayev məhkəməyə gəlməyib.

Buna görə Xalq artistinin müdafiəçisi tərəfindən elektron məhkəmə sisteminə prosesin təxirə salınması ilə bağlı yerləşdirdiyi vəsatəti iclasda elan olundu. Ağadadaş Ağayev üzrlü səbəbdən prosesdə iştirak edə bilmədiyini vurğulayaraq prosesin növbəti günlərə təyin olunmasını xahiş edib. Məhkəmə vəsatəti qəbul edərək növbəti prosesi noyabrın 14-nə təyin edib.

Qeyd edək ki, bu ilin iyul ayında Xalq artisti Ağadadaş Ağayevlə "MedEra Hospital"ın mühafizəçisi Nurəddin Cəlilov arasında insident baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb, balta klinikada çalışan N.Paşayevaya dəyərək xəsarət yetirib. Mühafizəçi Nurəddin Cəlilov isə Xalq artistini döyüb.

Xalq artisti Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq - silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda) maddəsi ilə ittiham edilir. Qeyd edək ki, bu maddə üzrə 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.



# İki plastik əməliyyatı birdən etdirəcək

***Əməkdar artist Mətanət İsgəndərli yenidən bıçaq altına yatacaq.***

Müğənni "Qonaqcanlı" verilişində artıq çəki aldığını deyib: "Rahatam, çünki əməliyyata gedəcəyəm. Bədənşəkillənmə və üzgərmə etdirəcəyəm. Hazırda həkim seçimi edirəm. Kaşlar olmasın deyə, dəqiq seçməliyəm. Qaşları qaldırmaqdan xoşum gəlmir. Deyəcəyəm ki, mənim Mətanət simam, təbii görünüşüm dəyişməsin. Zarafat deyil, 40 kiloqram çəki atdım. 45 idi, amma 5 kiloqramı yenidən aldım. Mədəkiçiltmədə çəki qəfildən düşür, sonra bədən başlayır çəki yığmağa. Bu, məni narahat etmir.

Əslində yayda etdirəcəkdim. Amma ildə bir dəfə qızım Ülkərin yanına gedə bilirəm. Getdim, 1 ay Türkiyədə qızımla dincəldim".

# "Bunun səbəbi Aygün Kazımova oldu" - Xatun

***Müğənni Xatun Əliyeva Xalq artisti Aygün Kazımova ilə bağlı etiraf edib.***



Axşam.az xəbər verir ki, ifaçı bu haqda "El canlı" verilişində danışıb. O bildirib ki, son günlər xeyli çəki atmasına səbəb Pop kraliça olub: "Ad gününə getmişdim. Dedi ki, belə kökəlib hara gedirsən? Mütləq arıqlamalısan. Mən də o sözdən sonra arıqladım. Diva gözəllik vurğunudur. O bizim bəhrə yerimizdir. Mən də ondan bəhrələnirəm".

# "Kaş ki, yanılmazdıq" - Oksana Rəsulova

***"Sən yüksələndə dostların bilir kimsən. Sən düşəndə bilirsən ki, dostların kimdi".***

Bu sözləri rəqqasə-aktrisa Oksana Rəsulova sosial şəbəkədə yazıb.

"Əsl dost hadisəyə baxmaz, insanın düşdüyü vəziyyətə və nəticəyə baxar, əl tutar, dərman olar, dəstək verər! Kaş ki, belə dostlar çox olardı... Kaş ki, insan insanlarda yanılmazdı, kaş..." deyə, Oksana qeyd edib.

# "Qara qızın səni çox sevir" - Şəbnəm Qəhrəmanova

***Müğənni Şəbnəm Qəhrəmanova "Həmin Zaur"un qonağı olub.***

Sənətçiyə efir zamanı "Qara qızıma" notu ilə özəl hədiyyə gəlib. Böyük gül çələnginin kim tərəfindən gəldiyini ona məlum olduğunu deyən Qəhrəmanova həyatındakı şəxsə təşəkkür edib.

Studiyada sevdiyi şəxsə etiraf edən müğənni "Yaxşı ki, həyatımda varsan, Qara qızın səni çox sevir" deyə, səmimi hisslərini ifadə edib.




# COP29 üçün rəqəmsal nəqliyyat xəritəsi istifadəyə verilib

***Bu ilin 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək COP29 konfransına müxtəlif ölkələrdən minlərlə ziyarətçinin səfər edəcəyi nəzərə alınaraq rəqəmsal nəqliyyat xəritəsi istifadəyə verilib.***

Bu barədə "Unikal"a COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib. Qeyd edilib ki, COP29 zamanı nəqliyyat məsələlərinin idarə edilməsini ziyarətçilər üçün asanlaşdırılmasına xidmət edən bu onlayn resurs əlverişli mövqelərdə yerləşən nəqliyyat qovşaqları, eləcə də tədbir və qonaqlama məkanları ilə bağlı əsas məlumatları ehtiva edir.

Nəqliyyat qovşaqları şəbəkəsi şəhərin əlverişli ərazilərini əhatə etməklə yanaşı, bir sıra marşrutları, eləcə də nəqliyyat sxemlərini özündə birləşdirir. Qovşaqlar nümayəndə heyəti və ziyarətçilərin yaşayış yerlərindən Bakı stadionuna getmələri, habelə marşrut avtobusları, metro xətləri/metro stansiyaları və taksilər də daxil olmaqla, bir sıra multimodal nəqliyyat vasitələrindən asan istifadə imkanını təmin edir.

Yeni istifadəyə verilmiş və COP29 veb-saytında yerləşdirilmiş rəqəmsal nəqliyyat xəritəsi istifadəçilərə əsas nəqliyyat qovşaqlarının mövqelərini göstərmək üçün nəzərdə tutulub. Bu nəqliyyat qovşaqları COP29 müddətində nümayəndə heyətlərinin gediş-gəlişini optimallaşdırmaq və asanlaşdırmaq məqsədilə hazırlanmışdır və nəqliyyat qovşaqları, tədbir məkanı, o cümlədən qonaqlama məntəqələri arasında nəqliyyat hərəkətlərini effektiv şəkildə özündə birləşdirir.

İstifadəsi rahat olan bu elektron resurs COP29-un nəqliyyat qovşaqları şəbəkəsi, müvafiq marşrut avtobusu xətləri və "Aero Ekspress" avtobusları ilə sərnişindaşıma xidmətləri ilə yanaşı, Bakı Stadionu, o cümlədən Mavi və Yaşıl zonalar, Heydər Əliyev Beynəlxalq Aeroportu, əsas otellər və yaşayış kompleksləri arasında istiqamətləndirməni təmin edir. Buraya parklanma yerləri və avtobus dayanacaqları, eləcə də minmə və enmə nöqtələri haqqında məlumatlar da daxildir. İstifadəçilər rəqəmsal nəqliyyat xəritəsində müvafiq sahələri qeyd edərək təyinat nöqtələri arasında nəqliyyatla və ya piyada hərəkət üçün ən uyğun marşrutları seçə bilərlər.

Rəqəmsal nəqliyyat xəritəsi COP29 Azərbaycan Əməliyyat Şirkətinin konfrans zamanı ziyarətçi axınını effektiv şəkildə idarə etmək üçün həyata keçirdiyi bir sıra tədbirlərdən biridir və COP29 müddətində həm qonaqlar, həm də şəhər sakinləri üçün rahat və komfortlu hərəkəti təmin edir. Sərnişindaşıma xidmətlərinin etibarlı şəkildə icrasını təmin etmək üçün həyata keçirilən digər tədbirlərə ekspress ictimai avtobuslar, konfrans üçün ayrılmış xüsusi marşrut avtobusları və hava limanına/hava limanından transfer xidmətləri də daxil olmaqla, yüzlərlə taksinin və 400-ə yaxın avtobusun istifadəyə verilməsi daxildir.

Qeyd edilib ki, bütün bunlarla yanaşı, Azərbaycan hökuməti 11-22 noyabr tarixlərində keçiriləcək konfrans zamanı akkreditə olunmuş iştirakçılara şəhər və aeroport avtobuslarından, eləcə də ictimai nəqliyyatdan ödənişsiz istifadə imkanı təqdim edir. Nümayəndə heyətləri üçün ödənişsiz marşrut avtobusu xidmətləri ilə yanaşı, ictimai nəqliyyatdan da pulsuz istifadə imkanı UNFCCC tələblərində nəzərdə tutulmasa da, tədbirə ev sahibliyi edən Azərbaycanın üstün səylərini bir daha nümayiş etdirir və COP29 zamanı nümayəndə heyətlərinin Bakıda bir neçə nəqliyyat növündən ödənişsiz istifadə etmələrinə şərait yaradır. Marşrut avtobusu xidmətləri və ictimai nəqliyyatdan (metropoliten, qatarlar və müntəzəm avtobuslar) ödənişsiz istifadə etmək üçün nümayəndələr UNFCCC-nin akkreditasiya və ya təsdiq məktubunu təqdim etməlidirlər. Konfransın nəqliyyat xidmətlərindən istifadə ilə bağlı bütün məlumatlar COP29-un rəsmi veb-saytında yerləşdirilib.

# Sahil Babayevə yoxlama şoku

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tenderləri təftiş ediləcək - Sensasion iddialar!

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yoxlamalar aparılacaq. Təftişin məqsədi nazirliyin keçirdiyi tenderlərlə bağlı ictimaiyyətə də məlum olan qeyri-şəffaflıq, qeyri-obyektivlik və şişirtmə barədə şübhələrdir. Bu barədə "Unikal" qəzetinə məlumatlı mənbələrdən informasiya daxil olub.***

"Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev fəaliyyətə başlayarkən özünün "qənaətcil nazir" obrazını yaratmağa çalışmış, məsələn, əlillik dərəcələrinin kütləvi ləğvinə start vermişdi. Bu proses nəinki cəmiyyətdə, hətta millət vəkilləri də daxil olmaqla ictimaiyyətin müxtəlif təbəqələri tərəfindən narazılıqla qarşılanmışdı. Sonradan eyni proses



ünvanlı sosial yardımlarla bağlı da müşahidə edildi. Sahil Babayev yüksək dairələrin ona etimadından faktiki olaraq sui-istifadə etməyə başladı. Addımlarını "israfçılıqla mübarizə" kimi qələmə verməyə çalışaraq əslində özündən əvvəlki əmək və əhalinin sosial müdafiəsi nazirinə (Səlim Müslümov nəzərdə tutulur - red.), obrazlı desək, "rəhmət oxutdurmağa başladı. Nəticə etibarilə Babayevin nazir olduğu dönəmdə milyonlarla manatlıq şübhəli dövlət satınalması barədə iddialar ortaya çıxdı" - deyə mənbələrimiz bildiriblər.

Məsələn, Sahil müəllimin rəhbərlik etdiyi nazirlik Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Bakı, Gəncə, Mingəçevir, Şəki, Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satınalınması üzrə 03.07.2023-cü il tarixdə başladığı açıq tenderə 12.07.2023 -cü ildə yekun vurub və fiziki şəxs Ağaməmmədova Xanım Şamil qızı ilə 2.531.250 manat məbləğində satınalma müqaviləsi bağladığını 23.08.2023-cü il tarixdə dövlət satınalmalarının vahid internet portalında açıqlayıb.

Elektron media resursları Sosial Müdafiə Nazirliyindən 3 milyon manata yaxın tender udan Xanım Ağaməmmədova barəsində açıq mənbələrdə heç bir məlumatın olmadığını yazıb.

Sonradan aparılan media araşdırmasında isə məlum olub ki, adı çəkilən fiziki şəxsin hüquqi ünvanı Şəki rayonu, Şəki şəhəri, S.Rəhman, ev 70, mənzil 49-da yerləşir. Mərkəzi Seçki Komissiyasının seçicilərin siyahısında Ağaməmmədova Xanım Şamil qızının həqiqətən də göstərilən ünvanda pasport qeydiyyatında olduğu göstərilir. Amma burada bir maraqlı nüans var. Ağaməmmədova Xanım Şamil qızı 1951-ci il təvəllüdlüdür. "Maraqlıdır ki, 72 yaşlı bir qadın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün əlil olmuş şəxslərə və şəhid ailələrinə Bakı, Gəncə, Mingəçevir, Şəki, Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzilləri necə satın alacaq?" - həmin vaxt ictimaiyyət haqlı olaraq sual edirdi.

Lakin bu sual üzərində çox baş sındırmağa dəyməz: Sahil Babayevin zamanında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin satınalmaları ilə bağlı oxşar müəmmaları saymaqla bitmir, sözügedən qurum üçün şübhəli tenderlər, demək olar, adiləşib.

Başqa nümunə: Babayevin rəhbərlik etdiyi nazirliyin "Aznest" və "Aqri Kon" şirkətlərinə hələ 2 il öncə 160 milyon manatdan artıq dəyəri olan şübhəli tenderlər verildiyi ortaya çıxmışdı. Məsələn, Göygöl rayonunda yerləşən Dövlət Sosial Müdafiə Fondunun 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinin əsaslı təmirinə isə 27 milyon manat xərclənməsi geniş ajiotaj doğurmuşdu. Aydın olmuşdu ki, 160 milyon manat kimi irihəcmli satınalma Sahil müəllim nazir təyin olunduqdan cəmi 2 ay sonra yaranan, açıq mənbələrdə nə saytı, nə əlaqə telefonları, nə ofis ünvanı görünməyən "Aznest" və "Aqri Kon" şirkətləri tərəfindən udulub!

Bundan başqa, "Ekvita", "Global Legal" adlı şirkətlərə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən elektron xidmətlər adı altında milyonlarla manatlıq müəmmalı tenderlər verildiyi bildirilirdi. Həmin şirkətlərinsə Sahil Babayevin müavini Anar Kərimova yaxınlığının olduğu qeyd edilirdi. Lakin nazirlik bununla bağlı ittihamlara heç bir rəsmi cavab verməyib.

Babayev nazir təyin edildikdən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə keçirilən tenderlərin şəffaflığı, obyektivliyi və səmərəliliyi ilə bağlı şübhələr hələ bir müddət öncə aidiyyatı dövlət qurumlarının diqqətini çəkməyə başlayıb. Son olaraq bu ilin sentyabrında Anti-İnhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (AİİBNX) Babayevin rəhbərlik etdiyi nazirliyin tərkibində fəaliyyət göstərən Dövlət Məşğulluq İdarəsinin 15.306,18 manatlıq tenderinin də keçirilməsi üçün icazə verməyib. Belə ki, sözügedən qurum həmin vəsaitlə İsmayıllı "DOST EVİ", Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin inzibati binasının qazlaşdırılması işlərinin satın alınmasını həyata keçirməli idi. Lakin bu qurumun da qanuna əsasən ciddi səhvlərə yol verməsi müəyyən edildiyindən, müsabiqə məqbul bilinməyib. Bundan əvvəl isə AİİBNX Babayevin nazirliyinin 5 tenderini bir gündə ləğv etmişdi. Həmin ləğvetmələrin səbəbi də məhz qiymət şişirdilməsi, qanunların bir çox tələblərinin pozulması ilə bağlı olmuşdu.

Bütün bunları ümumiləşdirdikdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin satınalmaları ilə bağlı yoxlamalara start verilməsi təəccüb doğurmayacaq.

***Toğrul Əliyev***

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:17 PM Page 4



# Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesi yeni mərhələyə qədəm qoyur

## Tərəflər arasında yanaşmaların fərqli olması onu göstərir ki, danışıqlar prosesi asan olmayacaq

***Ermənistan parlamenti Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlamenti ratifikasiya edib. Bitərəf və əleyhinə səs verən olmayıb. Müxalifətin "Hayastan" və ""Şərəfim var" fraksiyaları müzakirə və səsvermədə iştirak etməyib.***

Qeyd edək ki, Azərbaycan və Ermənistan sözügedən əsasnaməni avqustun 30-da imzalayıb. Reqlament delimitasiya işlərinin təşkilini və müvafiq sənədlərin qəbulunu, dövlət sərhədinin kəsişməsinin protokol-təsvirinin tərtibini, müvafiq miqyaslı delimitasiya xəritəsinin tərtibini, ekspert qruplarının işini nəzərdə tutur. Bundan əlavə, sentyabrın 26-da Ermənistanın Konstitusiya Məhkəməsi Azərbaycanla sərhədlərin delimitasiyası üzrə işçi komissiyanın reqlamentinin qanunauyğun olduğuna dair qərar qəbul edib.



Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, bu, texniki sənəddir: "Həmin sənədin siyasi əhəmiyyəti çox da böyük deyil. Sadəcə olaraq, orada yanaşmanın hansı formada olacağı göstərilir. Alma-Ata bəyannaməsi ilə yanaşı olaraq, digər prinsiplər də tətbiq oluna bilər. Hələlik, Azərbaycanın və Ermənistanın sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində Alma-Ata bəyannaməsinə yanaşması ciddi şəkildə fərqlənir. Yeganə məntiqi razılıq ondan ibarətdir ki, tərəflər SSRİ dövründə olan sərhədlərin əsasında iş aparacaqlar. Hansı dövrə və ilə aid olan xəritələrdən istifadə ediləcəyi isə hələlik məlum deyil. Bu məsələ açıq olaraq qalır", - deyə o bildirib.

Sabiq nazir delimitasiya prosesinin nə qədər davam edə biləcəyi ilə bağlı suala belə cavab verib: "Delimitasiya və demarkasiya prosesi uzun illər davam edən məsələdir. Bu proses müxtəlif ölkələr arasında on illərlə davam edib. Azərbaycanın və Ermənistanın bu məsələyə yanaşması fərqlidir. Yanaşmaların fərqli olması onu göstərir ki, danışıqlar prosesi asan olmayacaq. Mən inanmıram ki, bizə delimitasiya prosesini tələsdirmək lazımdır. Biz öz strateji məqsədlərimizə nail olmaq üçün addımlar atmalıyıq. Artıq komissiyaların səlahiyyətləri var və onların sərhədləri müəyyən edilib. Bundan sonra konkret danışıqlar olacaq. Beləliklə, biz bu işin bünövrəsini qoymuş olduq".

ACP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistan parlamenti Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası və demarkasiyası üzrə komissiyaların reqlamenti haqqında qanun layihəsini birinci oxunuşda qəbul etməsi müsbət prosesdir. Onun sözlərinə görə, Baş nazir Nikol Paşinyan Azərbaycana hücum olmayacağını qeyd edib: "Paşinyan "Biz bütün qonşularımızın ərazi bütövlüyünü tanıyırıq və bununla bağlı de-yure öhdəliklər götürməyə hazırıq"-kimi açıqlama verib. Ermənistan Baş nazirinin bu açıqlaması manipulyasiyadır. Əgər Paşinyan yekun sülh müqaviləsində tam maraqlıdırsa, qanunvericilik bazasında Azərbaycana qarşı ərazi iddialarını çıxarmalı və Zəngəzur dəhlizinin açılmasına tam razı olmalıdır. Azərbaycanın təklif etdiyi "Kalinqrad" variantı üzrə işlər reallaşa bilər. Əgər, Kalinqrad variantı reallaşsa, bu yola üçüncü bir tərəfin monitorinqinə və nəzarət etməsinə ehtiyac qalmayacaq. Qeyd edim ki, Kazanda BRİCS sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin görüşməsi üçün müsbət atmosfer var. ABŞ Rusiyanın vasitəçiliyi ilə danışıqlarda və sülh müqaviləsinin bağlanmasında maraqlı deyil. Ona görə də ABŞ prezidenti açıq şəkildə hər iki liderə məktub göndərərək prosesi sürətləndirməyə çağırır".

Siyasi şərhçi Aqşin Kərimov isə Azərbaycan-Ermənistan sülh gündəliyinə dair yeni tezislərini açıqlayıb. Onun fikrincə, Ermənistan Azərbaycanla sülhə dair irəliləyiş fonunu vurğulayan açıqlamalar versə də, bu, hərtərəfli sülh naminə atılan addım kimi qiymətləndirilmir: "Yekun mütləq sülhün təmini üçün Azərbaycanın şərtləri var və Baş nazir Nikol Paşinyan həmin şərtlərin İrəvan tərəfindən icra edilməsi ilə Bakıya qarşı dönüş yaratmaq seçimləri arasında qalıb. Paşinyanın səyləri sülh gündəmini sabotaj edən elementləri daha çox qabardır ki, bu da Ermənistanın Azərbaycana qarşı təsir əməliyyatları yaratmaq cəhdlərinin bir hissəsidir. Ermənistan sülh proqramını Rusiya ilə Qərb arasındakı mübarizə elementinə çevirmək istəyir. Hərçənd ki, Ermənistanın Azərbaycanın regionda yaratdığı reallıqları geri çevirmək səylərinin faydasız olduğu göz önündədir və bu, gələcəkdə İrəvanı daha qaranlıq tunelə salan tendensiyaların gücləndirilməsidir. Nəticə olaraq Ermənistanın sülh gündəliyi Azərbaycanın yekun strateji məqsədlərinin müəyyən etdiyi xətlərlə uyğunlaşan məqamlara malik olsa da, bütövlükdə bu məqsədlərə tam cavab vermir.Həm də ona görə ki, Ermənistan sülh proqramını Rusiya ilə Qərb arasındakı mübarizənin elementinə çevirməkdə maraqlı tərəf kimi çıxış edir".

Politoloq Asif Nərimanlı deyib ki, Paşinyanın müavini Mher Qriqoryan eyni addımın Azərbaycanın da atmasını gözlədiklərini deyir, erməni müxalifəti isə "Azərbaycan niyə əsasnamənin ratifikasiyası ilə bağlı heç bir addım atmır" sualını müzakirəyə çıxarıb: Bu prosesdə iki məqam diqqət çəkir: Ermənistan niyə tələsir? Azərbaycan niyə səbrlə davranır? Ermənistanın ratifikasiya etdiyi əsasnamə layihəsi 19 aprel razılaşmasında qeyd olunduğu kimi "sərhədin delimitasiyası prosesində 1991-ci il Alma-Ata bəyannaməsinə" əsaslanır və bu, delimitasiyanın Ermənistanın maraqlarına uyğun aparılmasını şərtləndirən amildir. İrəvan əsasnamənin hüquqi təsdiqinin bütün prosesdurunu icra etməklə:

- SSRİ dağılanda mövcud olan xəritələrin (sonuncu olan 1979-cu ilin xəritəsi) əsas götürülməsi, sovetlər dövründə ermənilərə verilən ərazilərimiz üzərində legitimlik əldə etmək üçün hüquqi baza yaradır;
- Tələsik imzalamaq istədiyi sülh sazişinin önündəki manevrlərdən birini (razılaşdırılmayan maddələrindən birinin sərhədin delimitasiyasında baza prinsipi olduğu istisna deyil) qaldırmaq istəyir;
- Delimitasiyada baza prinsipinin sülh sazişində dəyişdirilməsi perspektivinə qarşı hüquqi istinad əldə edə biləcəyini düşünür;

Azərbaycan tələsmir, çünki 19 aprel razılaşmasında müəyyən edilən baza prinsipinin sülh sazişində dəyişdirilə biləcəyi qeydi var və saziş imzalanmadan əsasnamənin ratifikasiya edilməsi həm onun dəyişdirilməsi imkanlarını azaldır, həm də delimitasiyada İrəvanın maraqlarına uyğun hüquqi bazanı yaradır".

**M.İbrahimli**




# MEDİA Gəncədə konfrans keçirib

***Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Gəncə şəhərində bölgədə fəaliyyət göstərən region mediası subyektlərinin nümayəndələrinin iştirakı ilə konfrans keçirilib.***

Konfransda Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktorunun müavini Natiq Məmmədli, Agentliyin digər əməkdaşları və bölgədə fəaliyyət göstərən media nümayəndələri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli qeyd edib ki, MEDİA Agentliyi tərəfindən region mediasının ümumi vəziyyəti, mümkün inkişaf perspektivləri daim diqqət mərkəzində saxlanılır, regionlarda çalışan media nu?mayəndələri u?c?u?n təlimlər keçilir, qars?ılıqlı təcru?bə mu?badiləsi məqsədilə səfərlər təşkil olunur, fikir mübadilələri aparılır. O, həmçinin vurğulayıb ki, bugünədək bir çox regionlarda icra olunan "Regional Medianın İnkişafı" layihəsi əhəmiyyətli nəticələrlə yadda qalıb. Regionlara daha öncə təşkil edilən səfər və görüşlər nəticəsində hazırlanan diaqnostik icmalda keçirilməsi nəzərdə tutulan inkişaf proqramları çərçivəsində Agentliyin Hüquq şöbəsinin müdiri Adil Tağıyev "Azərbaycanda media mühitinin hüquqi tənzimlənməsinin yeni mexanizmləri", Media təhlil şöbəsinin müdiri Səbinə Seyidova isə "Sosial mediada jurnalistlərin peşə davranış qaydaları" mövzusunda təqdimatlarla çıxış ediblər.

Tədbirdə bildirilib ki, ölkə üzrə medianın hərtərəfli inkişafını stimullaşdırmaq, resurs və informasiya əlçatanlığını artırmaq, media nümayəndələrinin fərdi və peşəkar inkişafı istiqamətində fikir mübadiləsi aparmaq məqsədilə həyata keçirilən konfrans regionlarda fəaliyyət göstərən media nümayəndələri üçün müzakirə platforması yaratmağı, onların professional bacarıqlarını təkmilləşdirməyi, eyni zamanda sahə üzrə hüquq normaları barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsini hədəfləyir.

Tədbirdə, həmçinin bölgədə çalışan media nümayəndələrini maraqlandıran məsələlər, onların üzləşdiyi problemlə və təklifləri dinlənilib. Region gənclərinin iştirakı ilə keçirilən təlimdə isə Agentliyin Media dəstək layihələri, strateji planlaşdırma və informasiya texnologiyaları departamentinin direktoru Ləman İsgəndərova "Media savadlılığı" mövzusunda çıxış edib, sonda gənclərə təlimdə fəal iştiraka görə sertifikatlar təqdim olunub.

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:17 PM Page 5



# Əliyevlə Ərdoğan qeyri-rəsmi formatda görüşdü



***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Kazan şəhərində XVI BRİCS Sammitinin "Outreach" / "BRİCS+" formatının ilk plenar iclasında iştirak edir.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev BRICS çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla qeyri-rəsmi formatda görüş keçirib.

# Əliyevlə Paşinyanın Kazan görüşü: Sülh danışıqlarının irəli aparılması üçün mühüm addım

***Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.***




"Unikal" xəbər verir ki, görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

# Prezident Kazanda Vyetnamın Baş naziri ilə görüşüb

***Kazanda keçirilən BRICS sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Vyetnamın Baş naziri Fam Min Tin ilə görüşüb.***



Qeyri-rəsmi qısa söhbət zamanı tərəflər ikitərəfli münasibətləri və beynəlxalq məsələləri müzakirə ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində səfərdədir.

# 13 ölkə BRICS-in tərəfdaş statusunu aldı - SİYAHI

***Oktyabrın 24-də Kazan şəhərində keçirilən XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclası ilə liderlərin toplantısına yekun vurulub.***




"Ria Novosti"nin məlumatına görə, Kazanda keçirilən sammit zamanı 13 dövlət RICS-in tərəfdaş ölkəsi statusunu alıb. Bunlar aşağıdakılardır:

Qazaxıstan, Əlcəzair, Belarus, Türkiyə, Boliviya, Kuba, İndoneziya, Malayziya, Nigeriya, Tayland, Uqanda, Özbəkistan və Vyetnam.

Bildirilir ki, bu dövlətlərin hələ ki assosiasiyaya tamhüquqlu üzv olmaq planları yoxdur.

BRICS 2006-cı ildə Rusiya, Çin, Hindistan və Braziliya tərəfindən yaradılmış dövlətlərarası birlikdir. 2024-cü il yanvarın 1-dən Misir, Efiopiya, İran, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanı da BRICS-ə qoşulub.

# "Bu, Avropa Parlamentindəki rüşvətxorluğun ağır fəsadlarıdır" - Milli Məclisdən açıqlama

***Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnaməsi ilə tanış olduq. Özünü Avropa parlamentarizminin siması kimi təqdim edən bu təsisat qoca qitənin bütün problemlərini bir kənara qoyaraq, yenidən ölkəmizə qarşı hücuma keçib.***

"Unikal" xəbər verir ki, bu fikirlər Avropa Parlamentinin 24 oktyabr tarixli qətnaməsinə Azərbaycan Milli Məclisinin münasibəti ilə bağlı şərhində yer alıb.

Şərhdə deyilir ki, Avropa Parlamentinin Azərbaycan xalqının haqlı gözləntilərinə münasibətdə etinasızlığına artıq alışmışıq. Nəticə etibarilə, Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalı, şəhər və kəndlərimizin yer üzündən silinməsi, işğal olunmuş torpaqlarımızda və Ermənistan ərazisində xalqımızın tarixi, dini və mədəni irsinin kütləvi şəkildə dağıdılması və mənimsənilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan artıq soydaşımızın hüquqlarının tapdanması, onların uzun illər ərzində çəkdikləri iztirablar avropalı parlamentariləri heç vaxt maraqlandırmayıb. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş anti-terror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına icra etməsi ilə də barışa bilməyiblər.

Lakin indi məlum olur ki, Avropa Parlamenti artıq öz anti-Azərbaycan xislətini bütün rəngarəngliyi ilə nümayiş etdirməyə qərar verib. Qətnamənin mətnindən də göründüyü kimi, ölkəmizə qarşı fəaliyyət göstərən müxtəlif maraq qruplarının istifadə etdikləri ayrı-ayrı mövzuların, təzyiq alətlərinin toplanaraq, bir sənəd formasında tərtib olunması məhz bunu deməyə əsas verir.

Bir neçə kağız parçasında Azərbaycana qarşı saxta məlumatlara əsaslanan faktlar, absurd iddialar, ittihamlar, təhdid və tələblər irəli sürülür. Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə açıq şəkildə hörmətsizlik edilir, daxili işlərimizə müdaxiləyə cəhdlər göstərilir. Eyni zamanda, Ermənistana xüsusi nəvaziş nümayiş etdirilir, onun silahlandırılması təşviq olunur, bununla da həmin ölkədə revanşist meyllərin gücləndirilməsinə və regionda yenidən münaqişənin alovlandırılmasına ciddi təşəbbüs göstərilir.

Qətnamədə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıtması, qərbi azərbaycanlıların haqlı tələbləri, ərazilərimizin Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minalardan təmizlənməsi, itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyi haqda bir ifadə belə yoxdur. Bu da həmin sənədin nə dərəcədə qərəzli və birtərəfli olmasını bariz şəkildə göstərir. Əlləri Azərbaycan xalqının qanına bulaşmış, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin hərbi əsir kimi qələmə verilməsi isə sadəcə hiddət doğurur.

Ölkəmizin qlobal və regional səviyyədə sülhün, sabitliyin və əməkdaşlığın təmin olunması naminə irəli sürdüyü təşəbbüslərə, göstərdiyi səylərə qərəzli münasibət də diqqətdən yayınmır. Təəssüf ki, avropalı parlamentarilər hətta iqlim dəyişmələri ilə bağlı mühüm bir məsələni siyasiləşdirərək, Azərbaycana qarşı ittiham aləti kimi istifadə etməkdən belə çəkinmirlər.

Bütövlükdə, bu qətnamə Azərbaycanofob, türkofob və islamofob qüvvələrin həqiqi mahiyyətinin başa düşülməsi baxımından maraq doğurur: öz çirkin niyyətlərinin reallaşması naminə hamılıqla qəbul edilən dəyərlərin və prinsiplərin, haqq-ədalət anlayışının üzərindən asanlıqla xətt çəkmək, onları öz maraqlarına uyğun şərh etmək qəbuledilməndir.

Bu qətnaməni Avropa Parlamentində dərin kök salmış korrupsiyanın və rüşvətxorluğun ağır fəsadları kimi qiymətləndirsək, hər halda, yanılmarıq. Fransanın, Ermənistanın və erməni lobbisinin yalan narrativləri üzərində qurulmuş bu qətnamə əslində əldə olunmuş maddi mənfəətin qarşılığıdır.



Digər düşündürücü məqam isə Avropa Parlamentində şovinist, irqçi və müstəmləkəçi təfəkkürün nə dərəcədə geniş miqyas almasıdır. Müstəmləkəçiliyə qarşı mübarizə aparan xalqları irredentist qruplar adlandıran avropalı parlamentarilər Fransanın müstəmləkəçilik siyasətinə haqq qazandıraraq, bunu Avropa siyasəti kimi qələmə verirlər. Hesab etmək olar ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqlar onların azadlıq və müstəqillik arzularının qarşısını kimlərin əngəllədiyi barədə daha aydın təsəvvürə malik olacaqlar.

Avropa Parlamentinin ölkəmiz əleyhinə yönəlmiş bu qətnaməsindən yalnız bir nəticə çıxarmaq olar: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin milli, suveren maraqlarına xidmət edən müstəqil siyasət kimlərisə ciddi narahat edir. Lakin onlar unudurlar ki, Azərbaycanla təzyiq və ultimatum dilində danışmaq olmaz.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin reallıqları təhrif edən, qeyri-obyektiv və birtərəfli qətnaməsini qəti şəkildə rədd edir. Bildirirk ki, parlamentimiz ölkəmizin və xalqımızın mənafelərinin müdafiəsi naminə aparılan bu siyasəti birmənalı şəkildə dəstəkləyir və onun reallaşması üçün bütün qüvvəsini bundan sonra da səfərbər edəcəkdir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Ermənistanın müdafiə naziri Azərbaycanla sərhəddə

***Ermənistan Respublikasının müdafiə naziri Suren Papikyan Azərbaycanla sərhəd zonasına səfər edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı məlumat yayıb.

Qeyd olunub ki, nazir departamentdə akkreditə olunmuş media nümayəndələrinin də sərhəd və arxa mühafizə məntəqələrində aparılan işlərin gedişi ilə tanış olmalarına şərait yaradıb: "Müdafiə idarəsinin rəisi görülən işlərin təfərrüatlarını təqdim edib, daha sonra media nümayəndələrinin suallarını cavablandırıb".

***Ağarza Elçinoğlu***

# "Bakı ilə sülh müqaviləsi layihəsi 80-90% razılaşdırılıb" - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, Azərbaycanla sülh müqaviləsi layihəsi 80-90% razılaşdırılıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə Kazanda "Outreach"/"BRICS plus" formatında keçirilən görüşdə deyib. Paşinyan vurğulayıb ki, tərəflər bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə bağlı ifadədə tam razılığa gəliblər. "Həm Ermənistan, həm də Azərbaycan ötən aylarda dəfələrlə bəyan ediblər ki, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulmasına dair saziş layihəsi ən azı 80-90% razılaşdırılıb", - o, qeyd edib.

***Gülayə Mecid***

# İlham Əliyev Kazanda “BRICS+” iclasında” çıxış etdi




***Oktyabrın 24-də Kazan şəhərində XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının ilk plenar iclası keçirilib.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Əvvəlcə XVI BRICS Sammitinin “Outreach”/“BRICS+” formatının nümayəndə heyətləri başçıları - iştirakçılar birgə foto çəkdirdilər. Rusiya Prezidenti Vladimir Putin çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi. Prezident İlham Əliyevin çıxışı:

-Hörmətli Vladimir Vladimiroviç. Hörmətli həmkarlar. Xanımlar və cənablar. Hər şeydən əvvəl dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istərdim. Fürsətdən istifadə edərək, Rusiya Federasiyasını BRICS-də uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim.

Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır, bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir.

Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

Prezident Vladimir Putin dedi: Hörmətli cənab Prezident, çox sağ olun. Həqiqətən, Siz tamamilə düzgün qeyd etdiniz ki, Azərbaycanın rolu, xüsusilə logistika dəhlizlərinin inkişafında çox mühümdür. Eyni zamanda, zənnimcə, Rusiyanın, həmçinin digər BRICS dövlətləri ilə artan əmtəə dövriyyəsini nəzərə alsaq, Qazaxıstan Prezidentinin indicə dediyi kimi, bu da böyük əhəmiyyətə malikdir.

Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm. Çox sağ olun.

Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

# "İslahatlara ehtiyac var" - Emin Əmrullayev

***Ali təhsil müəssisələrində tədris olunan ixtisaslarla bağlı əsaslı islahatlara ehtiyac var və buna mütəmadi olaraq baxılmalıdır.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

Nazir hökumətə təqdim olunan bakalavr və magistr üzrə ixtisasların yeni təsnifat layihəsinin texniki xarakterli olduğunu bildirib: ”Əslində, bu, indiki mərhələdə texniki dəyişikliklərdir. İkili diplomlar həyata keçirilir, ayrı-ayrı ölkələrdə ixtisaslar fərqli olduğu üçün qanunvericiliyə uyğunlaşdırma lazımdır”.



”Növbəti illərdə qəbul planını daha da artırmaq istəyirik. Biz daha çox azərbaycanlının ali təhsil almağını istəyirik. Buna da nail oluruq. Hazırda 20 il əvvəllə müqayisədə iki dəfə çox insan ali təhsil alır. Proses davam edəcək. 2026-cı ilə kimi qəbul planının 75 min olmasını hədəfləyirik. Hesab edirəm ki, bu rəqəm daha da artacaq. Çünki bu il həm Qarabağ, həm də Türkiyə-Azərbaycan universitetləri fəaliyyətə başladı”, - nazir bildirib.

O qeyd edib ki, nazirlik qəbul planının əsasən regionlarda artırılmasının tərəfdarıdır: ”İstəyimiz odur ki, regionlardakı ali təhsil müəssisələri universitet formatına düşsün. Yəni oradakı universitet 1000 nəfərlik olmasın”.

# Əli Əsədov Cevdet Yılmaza başsağlığı verdi



***Baş nazir Əli Əsədov oktyabrın 24-də Türkiyənin vitse-prezidenti Cevdet Yılmaza başsağlığı məktubu ünvanlayıb.***

Nazirlər Kabinetinin (NK) Mətbuat xidmətindən “Unikal”aa verilən məlumata görə, Ə.Əsədov Ankara şəhərində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insan tələfatı və yaralananlar barədə xəbəri dərin kədər hissi ilə qarşıladığını bildirib.

Baş nazir bu ağır faciə ilə əlaqədar Türkiyənin vitse-prezidentinə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, bütün yaralıların tezliklə şəfa tapmasını arzulayıb.

# "Azərbaycanın logistika dəhlizlərinin inkişafında rolu çox vacibdir" - Putin

***Rusiya prezidenti Vladimir Putin Avrasiyada beynəlxalq logistika dəhlizlərinin inkişafında Azərbaycanın rolunu qeyd edib.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb. ”Həqiqətən, siz kifayət qədər dəqiq qeyd etdiniz ki, Azərbaycanın xüsusən də logistika dəhlizlərinin inkişafında rolu çox vacibdir”, - Putin deyib.

O, xüsusilə Azərbaycan, Rusiya və digər BRİKS ölkələri arasında ticarətin artmasına diqqət çəkib ki, bu da qarşılıqlı fəaliyyətin mühüm tərkib hissəsidir.

“Azərbaycanla Ermənistan arasında demarkasiya və delimitasiya proseslərinin başlamasını qeyd etmək çox xoşdur” - deyən Putinin sözlərinə görə, delimitasiya və demarkasiya proseslərinin başlanması sülh müqaviləsinə gedən düzgün yoldur.

Putin BRICS+ sammitində Azərbaycan və Ermənistan liderləri arasında fikir mübadiləsinin aparılmasının tədbirə müsbət dəyər qatdığını söyləyib.

***Ağarza Elçinoğlu***

# Daha bir hərbi komissar rüşvətə görə saxlanıldı - RƏSMİ



***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon bölməsinin rəisi vəsifəsini icra edən polkovnik-leytenant Xəyyam Babayev saxlanılıb.***

”Unikal” “Qafqazinfo”ya istinadən xəbər verir ki, polkovnik-leytenant külli miqdarda rüşvət almaqda ittiham olunur. X.Babayev bundan əvvəl Xidmətin Goranboy, daha sonra Ağdam rayon bölməsinin rəisi olub. İş üzrə ilkin istintaq aparılır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsinin rəisi vəzifəsini icra edən, polkovnik-leytenant Babayev Xəyyamn saxlanıldığı təsdiqlənib.

Bu barədə “Unikal”ın sorğusuna cavab olaraq hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev məlumat verib. ”Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq idarəsində istintaq olunan cinayət işi üzrə muvafiq əməlləri törətməsinə əsaslı şübhələr olan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsinin rəisi vəzifəsini icra edən, polkovnik-leytenant Babayev Xəyyam Mirzə oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2-ci və 311.3.3-cü maddələri ilə ittiham elan edilmiş, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təqdimatına əsasən, Bakı Hərbi Məhkəməsinin qərarı ilə barəsində 4 (dörd) ay müddətinə həbs qətimkan tədbiri seçilmişdir. Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin ediləcəkdir”, - açıqlamada bildirilir.

Qeyd edək ki, bu yaxınlarda bir neçə indiki və sabiq hərbi komissar mənimsəmə və rüşvət almaya görə həbs edilib.

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:17 PM Page 7





## Baş nazirdən sərəncam: "Azərkontrakt"ın ləğvi ilə bağlı komissiya yaradılır

***"Azərkontrakt"ın ləğvi ilə bağlı Dövlət Kontrakt Korporasiyası komissiyası yaradılır.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov Sərəncam imzalayıb. Sərəncama əsasən, Ədliyyə Nazirliyi İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Neft Şirkəti (SOCAR) və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının prezident sərəncamına uyğunlaşdırılması ilə bağlı təkliflərini 5 ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

İqtisadiyyat Nazirliyi isə Ədliyyə Nazirliyi, SOCAR və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, "Azərkontrakt"ın digər səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı təkliflərini 15 gün müddətində Nazirlər Kabinetinə təqdim etməli, Maliyyə Nazirliyi və SOCAR-la birlikdə "Azərkontrakt"ın daxili bazarda təbii qazın qaz istehsalçılarından satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması müqavilələri üzrə hüquq və öhdəliklərinin, eləcə də bu sahədə fəaliyyətdən əldə edilmiş aktivlərinin, o cümlədən pul vəsaitlərinin SOCAR-a və onun strukturuna daxil olan qurumlara ötürülməsinin 2024-cü il dekabrın 1-nə qədər təmin edilməsi üçün zəruri tədbirlər görməli, bu barədə Nazirlər Kabinetinə məlumat verməlidir.

Energetika Nazirliyi "Azərkontrakt"ın mülki qanunvericiliyin tələblərinə uyğun olaraq ləğv edilməsi prosesinin aparılması məqsədilə 15 müddətində İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, SOCAR-ın və "Azərkontrakt"ın nümayəndələrindən ibarət tərkibdə Ləğvetmə Komissiyası yaratmalıdır.

İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, SOCAR və "Azərkontrakt" komissiyada təmsil olunacaq nümayəndələri barədə təkliflərini 3 gün müddətində Energetika Nazirliyinə təqdim etməlidirlər.

Mərkəzi icra hakimiyyəti orqanları dörd aydan gec olmayaraq, Sərəncamın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərini olmadığı barədə məlumatı Ədliyyə Nazirliyinə təqdim etməli və icra vəziyyəti tələb etdikdə, Nazirlər Kabinetinə məlumat verməlidirlər.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Sərəncama uyğunlaşdırılmasını təmin edib, bu barədə 6 ay müddətində Nazirlər Kabinetinə məlumat verməlidirlər.

Sərəncamın icrası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik, eləcə də Sənaye və energetika şöbəsinə həvalə edilib.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# "Bu, sülhün qurulmasında ilk kiçik addım hesab edilə bilər"

## Aydın Mirzəzadə: "Mümkündür ki, komissiyalar bütün sərhəddin deyil, onun müəyyən bir hissəsi ilə bağlı razılığa gəlsinlər"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Ermənistan parlamentinin Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlamenti ratifikasiya etməsindən, ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan və Ermənistan rəhbərlərinə məktub göndərməsindən və Ermənistanın Bakıda keçiriləcək COP29 tədbirində iştirak edib-etməyəcəyindən danışıb.***

***-Aydın müəllim, Ermənistan parlamenti Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlamenti ratifikasiya edib. Bu, iki ölkə arasında sərhədlərin delimitasiyasına necə təsir göstərəcək?***

-Azərbaycan və Ermənistan arasında komissiyanın reqlamenti haqqında sənəd texnikidir. Amma ilk dəfədir ki, iki ölkə arasında hansısa bir sənəd imzalandı. Həmin sənədlərin təsdiqi konstitusiya məhkəməsinin baxışından və parlamentlərin təsdiqindən keçdi. Bu, Azərbaycan və Ermənistan arasında sülhün qurulmasında ilk kiçik addım hesab edilə bilər. Reqlamentin təsdiq edilməsi komissiyaların hüquqi əsasda işləməsi üçün vacib sənəddir. Çünki indiyə qədər sərhədlərin delimitasiyası ilə bağlı komissiyalar sadəcə olaraq icra hakimiyyətlərinin təyin etdiyi şəxslər arasında aparılırdı. İndi isə dövlət tərəfindən rəsmi səlahiyyətə malik olacaqlar. Bu isə danışıqları daha da gücləndirəcək. Əldə edilmiş razılıqlar sonradan parlament tərəfindən ciddi sənəd kimi qəbul ediləcək. Eyni zamanda, sərhədlərin delimitasiyası uzun sürən prosesdir. Bəzən ölkələr onilliklərlə ümumi sərhəddin və ya onun bir hissəsinin delimitasiyası ilə bağlı danışıqlar aparırlar. Azərbaycan və Ermənistan 30 ilə qədər müharibə şəraitində olublar. 44 günlük Vətən müharibəsi bitdikdən sonra danışıqlar hələki ümumi prinsiplər ətrafında gedirdi. Amma komissiyaların yaradılması və onların fəaliyyətinə dair reqlamentin qəbul edilməsi komissiyaların işini sürətləndirəcək. Mümkündür ki, komissiyalar bütün sərhəddin deyil, onun müəyyən bir hissəsi ilə bağlı razılığa gəlsinlər. Həmin razılıq sonradan iki ölkə arasında sərhədlərin dəqiqləşdirilməsinə gətirib çıxaracaq. Yaxud, gözləmək olar ki, hər iki ölkə bütün sərhədboyu razılığa gəldikdən sonra sənədi təsdiqə göndərələr. Bu, iki ölkə arasında texniki razılaşmadan asılıdır.

***-Bu günlərdə Prezident İlham Əliyev ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenteri qəbul edib. O, ABŞ Prezidenti Cozef Baydenin məktubunu dövlətimizin başçısına təqdim edib. O, ABŞ-ın Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəklədiyini vurğulayaraq, sülh müqaviləsinin imzalanması üçün hazırkı şəraitdə tarixi imkanların olduğunu deyib. ABŞ rəsmisi hansı tarixi imkanları nəzərdə tutur?***

-ABŞ Prezidentinin hər iki ölkə rəhbərinə məktub göndərərək tez bir zamanda sülh müqaviləsinin imzalanmasına çağırış etməsini ABŞ tərəfindən məsələnin diqqətdə saxlanıldığı kimi qəbul etmək olar. Problemin həlli iki ölkənin ümumi razılaşmasından asılıdır. Bununla belə dünyanın ayrı-ayrı ölkələrinin problemin həllinə diqqət etməsi tərəfləri daha da stimullaşdırır. Və ya hansısa bir ölkənin bu məsələdə məhsuldar iştirakı varsa, o faktordan istifadə edilə bilər. Amerika bu məsələdə öz yardımını təklif edir. Müraciətdə hansısa ölkənin tərəfi tutulmur. Ancaq ondan fərqli olaraq Fransa birmənalı şəkildə Ermənistanın tərəfini tutur və Azərbaycanın ərazi bütövlüyünü daim şübhə altına alan siyasət yeridir. Yəni, söhbət dünyanın aparıcı dövlətlərinin Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına yekdil münasibətin formalaşmasından gedir. ABŞ kimi böyük ölkənin bu məsələni diqqətdə saxlaması, öz yardımını və təsir imkanlarını təklif etməsi bu ölkəyə olan etimadı gücləndirir. Nəzərə alsaq ki, ara-sıra ABŞ-ın müəyyən dairələri, hətta rəsmi strukturları Azərbaycanla bağlı qeyri-obyektiv mövqe ortaya qoyurlar. Bu isə Azərbaycan ictimayətini və siyasi dairələrini bir qayda olaraq narahat edir. Bu məsələdə ABŞ-ı obyektiv mövqe tutmağa dəvət edirlər.



İndiki məqamda isə səlahiyyəti başa çatan ABŞ administrasiyasının məsələyə konstruktiv yanaşması Azərbaycan tərəfdən müsbət qəbul edilir. Bu, problemin həlli üçün hər iki tərəfin daha operativ və düzgün istiqamətdə işləməsi üçün dəstək hesab edilə bilər.

***-Azərbaycanda keçiriləcək COP29 tədbirinə sayılı günlər qalıb. Dünyanın bir çox ölkələrinin rəhbər şəxsləri bu tədbirdə iştirak edəcəklər. Bəs, Ermənistanın baş naziri Nikol Paşinyan Bakıda keçiriləcək COP29-da iştirak edə bilərmi?***

-COP tədbiri ildə bir dəfə keçirilən və bütün dünyanın diqqətində olan məsələdir. Ətraf mühitin qorunması, ekologiyanın təmizliyi məsələsi bəşəriyyəti narahat edən ciddi problemlərdən biridir. Bu gün sənayeləşmənin güclənməsi, təbiətə ziyan vuran istehsalın genişlənməsi dünya üçün problemə çevrilib. Buna görə də ildə bir dəfə bu və ya digər ölkədə ətraf mühitlə bağlı beynəlxalq tədbir keçirilir. Bu tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın siyasi nüfuzunun yüksək olması, ətraf mühitin qorunmasında Azərbaycanın oynadığı rola qiymət verilməsi kimi qəbul edilə bilər. Artıq 38 minə qədər qonaq iştirakını təsdiq edib. Bir çox ölkə rəhbərləri fəxri qonaq kimi iştirak edəcəklər və öz mövqelərini ortaya qoyacaqlar. Bu isə konfransın siyasi nüfuzunu daha da artıracaq. Ermənistan tərəfinə dəvət göndərilib. Bu dəvət Azərbaycan dövlətinin deyil, BMT-nin, beynəlxalq təşkilatın dəvətidir. Hazırda Ermənistanda bu məsələ müzakirə edilir. Əgər Ermənistan COP29-da iştirak etmək istəyəcəksə, onların burada fəal iştirakı, mövqelərini bildirməsi üçün digər ölkələrə olduğu kimi onlara da şərait yaradılacaq və Azərbaycan tərəfindən onların təhlükəsizliyinə tam zəmanət veriləcək. Hər halda, COP29 ərəfəsində Ermənistanın bu məsələdə mövqeyini eşidəcəyik. Onların hansı səviyyədə rəsmi şəxslə təmsil olunması isə Ermənistanın seçimidir.

***Anar Kəlbiyev***

# Ramiz Mehdiyevin dövrü təftiş olunur - Cinayət işi

## AMEA-nın İşlər İdarəsindəki yeyinti ilə bağlı Baş Prokurorluq rəsmən hərəkətə keçdi - Həbslər olacaqmı?

***Ötən həftə Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun iştirakı ilə Kollegiya iclası keçirilib. İclasda digər məsələlərlə yanaşı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İşlər İdarəsi tərəfindən dövlət vəsaitlərinin və digər dövlət əmlakının idarə olunmasının auditinin nəticələri də müzakirə olunub.Müzakirələrin nəticəsinə əsasən, 2020-2021-ci illərdə dövlət vəsaitindən və əmlakından istifadədə aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibi əlamətlərinin ehtimal olunması nəzərə alınmaqla müvafiq materialların Baş Prokurorluğa göndərilməsinə dair qərar qəbul olunub.***



Bunun ardınca isə Azərbaycan Respublikasının Hesablama Palatasından daxil olmuş material əsasında Milli Elmlər Akademiyasının fəaliyyətində aşkar edilmiş qanun pozuntuları ilə bağlı aparılmış araşdırma üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandığı açıqlanıb. Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, sözügedən qurumun 2020-2023-cü illərə dair fəaliyyəti üzrə təyin edilmiş audit yoxlamaları nəticəsində vəzifəli şəxslər tərəfindən külli miqdarda dövlət vəsaitinin təyinatı üzrə istifadə edilməməsi, habelə digər qanun pozuntularının törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən faktlarla bağlı aparılmış araşdırma üzrə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Qeyd edək ki, 2019-2022-ci illərdə AMEA-ya Ramiz Mehdiyev rəhbərlik edib.

Mehdiyev açılan cinayət işi ilə bağlı "Unikal"a açıqlama verərək "Mənim heç nədən xəbərim yoxdur. Bununla bağlı mənimlə heç kim əlaqə saxlamayıb. Məlumatsız olduğum üçün hazırda bu məsələlərlə bağlı çox danışa bilmərəm" deyə vurğulayıb.

Daha maraqlı məqam odur ki, Hesablama Palatasının qanunsuzluqlar aşkarladığı dövrdə İşlər İdarəsinin rəhbər şəxslərindən biri Ramiz Mehdiyevin yaxın qohumu (qızının qaynı) Fikrət Əliyev olub. O, qanun pozuntularına yol verildiyi ortaya çıxan bu İdarədə müdir müavini postunu tutub. Ardınca isə müdirin səlahiyyətlərini müvəqqəti icra edib. Mehdiyev AMEA rəhbərliyindən getdikdən bir müddət sonra isə vəzifəsini itirib.

Bu səbəbdən də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanan cinayət işinin Mehdiyevlə yanaşı, F.Əliyev üçün də ciddi başağrısı yarada biləcəyi istisna edilmir.

Qeyd edək ki, Mehdiyevin zamanında bir müddət İşlər İdarəsinə rəhbərlik etmiş sabiq deputat Elton Məmmədov sonradan AMEA-dakı korrupsiya ilə bağlı sensasion iddialar səsləndirmişdi. "Bu gün AMEA-da 90 faiz əməkdaş sadəcə olaraq əmək müqaviləsinə deyil, iş vaxtına uyğun gedib-gəlməklə məşğuldur. Heç biri görəcəyi işlə məşğul olmur. AMEA-nın çox ölkələrlə əməkdaşlıq etdiyi müqavilələri var. Dövlət o müqavilələrdən irəli gələn birgə elmi tədqiqatın ortaya qoyulması, çoxsaylı alimlərin tamamlanmamış elmi məsələləri üçün Avropaya kifayət qədər vəsait verir. O vəsait isə təyinatı üzrə yox, şəxsi adamların maraqlarına sərf olunur. Mən bunları AMEA-da İşlər İdarəsinin rəhbəri vəzifəsində işlədiyim dövrdə aydınlaşdırmışam və hamısı Hesablama Palatasının öz aktında əksini tapıb" deyə Məmmədov bildirmişdi.

Ramiz Mehdiyevin dövründə Milli Elmlər Akademiyasında korrupsiyanın baş alıb getdiyinə dair başqa bir iddia isə təhsil üzrə ekspert Elşən Qafarov tərəfindən dilə gətirilmişdi. O bildirmişdi ki, Akademiyada islahatlar adı ilə guya müəyyən addımlar atılır, "lakin cəmiyyət çox gözəl bilir ki, AMEA-nın indiki rəhbəri (R.Mehdiyev nəzərdə tutulur - red.) islahatlar pərdəsi arxasında keçmiş siyasi həmkarlarını akademiyada müxtəlif vəzifələrə gətirməklə hələ də güc sahibi oluğunu göstərir". Sitat: "Mən inanıram ki, müvafiq qurumlar AMEA-da araşdırma aparsa, yeyinti, mənimsəmə və digər cinayət ünsürləri üzə çıxar".

Akademiyanın sabiq rəhbərinin dövrü ilə bağlı bu və buna bənzər çoxsaylı yeyinti ittihamları Hesablama Palatasının audit yoxlaması və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanması ilə öz təsdiqini tapır. İndi qalır həmin cinayət işinin sonunda kimlərin hüquqi məsuliyyətə cəlb ediləcəyi... Həmin sırada isə ilk növbədə Mehdiyevlə onun qohumu - kürəkəninin qardaşı Fikrət Əliyevin adı ön plana çıxır.

Maraq üçün bildirək ki, hələ 2021-ci ildə sosial şəbəkələrdə Fikrət Əliyevin saxlanıldığına dair məlumat yayılmışdı. Həmin vaxt "Bizimyol.info" etibarlı mənbələrə istinadən bildirmişdi ki, onun barəsində cinayət işinin başlanması gözlənilir. Buna səbəb isə AMEA-dakı korrupsiyadır. Lakin sonradan F.Əliyevin saxlanılması barədə yazılanlar rəsmi şəkildə təsdiqlənmədi.

Ancaq indi Hesablama Palatasından daxil olmuş material əsasında Milli Elmlər Akademiyasının fəaliyyətində aşkar edilmiş qanun pozuntuları ilə bağlı aparılmış araşdırma üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandığı rəsmən açıqlanıb. Bu cinayət işinin Ramiz Mehdiyevlə yanaşı, F.Əliyev üçün də nə vəd etdiyini zaman göstərəcək. Odur ki, gözləyək...

*Sənan Mirzə*



## Deputatlar Gürcüstana gedir

***Milli Məclisin bir sıra deputatları Gürcüstanda oktyabrın 26-a planlaşdırılmış parlament seçkilərini izləyəcəklər.***

"Unikal" xəbər verir ki, seçkiləri izləmək üçün Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev, deputatlardan Nizami Səfərov, Kəmaləddin Qafarov, Hikmət Məmmədov, Elşən Musayev, Sahib Alıyev, Anar Məmmədov və Tural Gəncəliyev Tbilisi şəhərinə səfər edəcəklər.

Milli Məclisin deputatları Gürcüstan parlamentinə seçkilərin hazırlıq səviyyəsi ilə maraqlanacaq, seçki məntəqələrində yaradılmış şəraitlə tanış olacaq, səsvermə günü vətəndaşların fəallığını və səslərin sayılması prosesini izləyəcəklər.

Səfər oktyabrın 27-də başa çatacaq.

## "İqlim dəyişikliyindən danışırıqsa, texnologiyaya da önəm verməliyik" - Deputat



***"COP29 ərəfəsində keçirilən builki STEAM festivalı çərçivəsində əsas diqqətin yaşıl texnologiyalara yönəldilməsi mühüm əhəmiyyət kəsb edir".***

"Unikal" xəbər verir ki, bunu Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalında millət vəkili Nigar Arpadarai deyib. N.Arpadarai STEAM təhsil metodunun sinergetik potensialı sayəsində iqlim dəyişmələrinin təsirlərini yumşaltmağın mümkünlüyünə toxunub: "İqlim dəyişikliyi üzrə mübarizədən danışırıqsa, biz texnologiyaya da fikir verməliyik".

Onun sözlərinə görə, həm rəqəmsallaşma, həm iqlim dəyişmələri zamanı yeni bacarıqlar tələb olunur və bunun üçün bütün fürsətlər yaranıb.

## İşğaldan azad olunan ərazilərdə 1,5 milyon mina ola bilər

***"İşğaldan azad olunan ərazilərdə 1,5 milyon mina olduğu ehtimal edilir."***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanda mina qurbanlarına həsr olunmuş dəyirmi masada Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) idarə rəisi Ramil Əzizov deyib.

O bildirib ki, təmizlənmiş ərazilərdən 161 min mina aşkarlanıb. "Bu, beynəlxalq problemdir. Düşünürəm ki, növbəti illərdə minadan təmizləmə aktual məsələ olaraq qalacaq", - deyə o əlavə edib.

## STEAM gələcək nəsli yeni çağırışlara hazırlayır - Nazir

***"STEAM-ın tədrisində əsas məqsədin gələcək nəsli yeni çağırışlara hazırlamaqdır".***

"Unikal" xəbər verir ki, bunu Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalında Elm və təhsil naziri Emin Əmrullayev deyib.

Emin Əmrullayev festivalın təhsil sahəsində nüfuzlu və əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırıb.

Bildirib ki, "STEAM Azərbaycan" ölkə təhsilində vacib layihələrdən biridir.

37_27 IYUI-QARA.qxd 10/24/2024 9:17 PM Page 9






## Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalı keçirilir

***STEAM Azərbaycan layihəsinin təşkilatçılığı ilə Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalı keçirilir.***

"Unikal" xəbər verir ki, Festival Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində təşkil olunub.

Bildirilib ki, Festivalın keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı təhsilalanların aşkara çıxarılması, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) Azərbaycanda keçirilməsi və 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar STEAM əsaslı yanaşmanın tətbiqi ilə ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından və alternativ enerji mənbələrindən səmərəli istifadəyə dair innovativ həll və layihələrin hazırlanmasının təşviq edilməsidir.

Qeyd olunub ki, STEAM Azərbaycan Festivalı ilk dəfə 9-10 dekabr 2021-ci il tarixlərində təşkil olunub.

STEAM təhsil metodu Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art), Riyaziyyatın (Math) birgə və inteqrasiya olunmuş şəkildə tədris etmək ideyası üzərində qurulub.

Festival çərçivəsində keçirilən yarışlarda ölkədə fəaliyyət göstərən bütün ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin təhsilalanları komandalar şəklində müxtəlif kateqoriyalar üzrə iştirak hüququna malikdirlər.

## Şəhid anası vəfat etdi

***Vətən müharibəsi şəhidi Rövlan Məmmədovun anası Solmaz xanım vəfat edib.***

"Unikal" xəbər verir ki, şəhidin anası xəstəlik səbəbindən dünyasını dəyişib.

Qeyd edək ki, Rövlan Məmmədov 2001-ci il mayın 24-də anadan olub. Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib. 2020-ci il oktyabrın 15-də şəhid olub.

## STEAM siniflərinə cəlb oluan şagirdlərin sayı

***Son illər ərzində Azərbaycan STEAM təhsili addım-addım və mərhələli şəkildə həm ümumtəhsil, həm də ali təhsilin bir hissəsinə çevrilməkdədir.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivilanın açılış mərasimində çıxışı zamanı deyib.

O bildirib ki, 250 min şagird müxtəlif səviyyələrdə STEAM siniflərinə cəlb olunub: "SAF təkcə ölkə miqyasında deyil, həm də region üzrə illik hesabat tədbiridir. Bu, ən çox ölkəni əhatə edən və ən çox şagirdi cəlb edən bir tədbirdir. Yaşıl SAF COP29 çərçivəsində keçirdiyimiz ilk böyük tədbirdir. Bu tədbir şagirdlərdə ətraf mühitin sağlamlaşdırılması barədə fikirlərin formalaşmasına kömək edəcək. İlk dəfə bu festivalda ənənəvi kateqoriyalarla yanaşı şagirdlərin iqlim dəyişikliyi ilə bağlı dayanıqlı həll yollarının tapılması, planetimizin qorunması kimi mövzularda bilik və bacarıqlarını və konkret layihələrinin nümayişini görəcəksiniz".

Nazir əlavə edib ki, sevindirici haldır ki, hər il şagirdlərimiz daha çox ölkədən olan yaşıdları ilə tanış olurlar.

# Oqtay Şiraliyevin keçmiş müavininə məxsus şirkətlə bağlı iddialar

## Azərbaycana gətirilən peyvəndlərin yarıdan çoxu niyə yararsız hala düşüb?



***Azərbaycanda ötən ildən etibarən qızılcaya yoluxanların sayında artım müşahidə olunub. Dövlət Statistika Komitəsinin (DSK) bu ilin mayında yaydığı məlumata görə, 2023-cü ilin yanvar-noyabr aylarında 1493 nəfər bu xəstəliyə yoluxub. Yoluxma əsasən uşaqlar arasında müşahidə edilib. Bir neçə uşaq xəstəlik səbəbindən vəfat edib. 2022-ci ildə isə cəmi bir nəfərdə bu xəstəliyə rast gəlinib.***

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da dünya miqyasında qızılcaya yoluxma hallarının 2023-cü ildə 2022-ci ilə nisbətən iki dəfə artdığı haqda məlumat yayıb. ÜST-ün məlumatları göstərir ki, 2023-cü ildə 321582, 2024-cü ildə isə 94 000-dən çox yoluxma qeydə alınıb. Təşkilat bəyan edib ki, qızılcaya yoluxmanın qarşısını hər iki pevənd dozasını vurmaqla almaq mümkündür.

Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramına uşaqların vaksinasiyasının tam və vaxtında əhatə olunması daxildir. Profilaktik peyvənd təqviminə görə, doğulduğu gündən 6 yaşadək uşaqlar 9 dəfə peyvəndlənir. Qızılca, məxmərək və parotitə qarşı vaksinasiya körpələr 12 aylıq və 6 yaşda olanda həyata keçirilir.

2016-2022-ci illərdə uşaqların yoluxucu xəstəliklərə qarşı immunoprofilaktikası Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan tibb müəssisələrində baş tutub. 2023-2024-cü illərdə yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair həyata keçirilən proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi də bu quruma həvalə olunub.

Lakin Hesablama Palatasının auditi ilginc məqamları ortaya çıxarıb. Qurumun uşaqların yoluxucu xəstəliklərə qarşı immunoprofilaktikasına dair apardığı audit nəticəsində məlum olub ki, 2016-2022-ci illərdə ölkə üzrə sərf olunan peyvəndlərin yalnız 44,5 faizi uşaqların peyvəndlənməsi üçün istifadə edilib, peyvənd dozalarının 51.1 faizi isə yararsız hala düşərək itkiyə gedib. Bu, İnnovasiya və Təchizat Mərkəzində (İTM) peyvəndlərin saxlanma şəraitinin tələblərə uyğun olmaması səbəbindən baş verib. Lakin adı çəkilən Mərkəz bu məsələyə hər hansı münasibət bildirməyib.

Auditdə peyvəndləməyə cəlb olunan tibb müəssisələri və həkim-pediatrların sayı ilə bağlı çatışmazlıq da öz əksini tapıb. Qeyd olunub ki, "Pediatriya" və "Yoluxucu xəstəliklər" ixtisasları üzrə kadr təyinatları əsasən, Bakı üzrə həyata keçirilib. Ölkə boyu 74 Epidemioloji Mərkəzdə 144 həkim-epidemioloq ştatının təxminən yarısı boş qalıb.

Hesablama Palatasının boş qalan yerlərlə bağlı tərtib etdiyi sorğu pediatr və epidemioloqlara verilən əmək haqqının az olmasını üzə çıxarıb ki, bu da uşaqların faktiki həkimsiz qalmasına səbəb olub. Peyvəndlərin orta hesabla 44,6 faizi vaxtında vurulmayıb.

Daha bir maraqlı məqam: Hesablama Palatasının yoxlamasında ölkəyə peyvənd gətirən şirkətlərdən birinin adı məlum olub. Bu, 2016-2022-ci illərdə elan olunan dövlət satınalmalarına dair tender siyahısına "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Dərman vasitələrinin topdan və pərakəndə satışını həyata keçirən həmin şirkət Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzinin elan etdiyi tenderlərin qalibi olub. "Zeytun Pharmaceuticals" 2017-ci ildə ölkəyə 304194 manat, 2018-ci ildə isə bir dəfə 305 473 manat, ikinci dəfə 1 255 269 manat, 2019-cu ildə isə 1 296 782 manat dəyərində vaksinlər, diaqnostikumlar və tibbi təyinatlı vasitələr gətirib.

"Zeytun Pharmaceuticals" MMC Səhiyyənin Təminat Mərkəzinin bu il elan etdiyi tender müsabiqəsinin də qalibi olub. Şirkətlə qurum arasında 396 480 manat dəyərində bağlanan müqavilədə qızılca və məxmərək infeksiyasına qarşı vaksinlərin satın alınması nəzərdə tutulub.

2024-cü ilin iyulunda dərc edilən satınalma müqaviləsinə görə, şirkət Səhiyyənin Təminat Mərkəzini qızılca və məxmərəyə qarşı 396 480 manat dəyərində olan peyvəndlə təmin edib.

"Zeytun Pharmaceuticals" MMC 9 oktyabr 2014-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 2000 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Nizami rayonu, Oqtay Vəliyev küçəsi, ev 21C-də yerləşir. Medianın araşdırmaları nəticəsində həmin ünvanın Səhiyyə Nazirliyinin Analitik Ekspertizası Mərkəzinin keçmiş direktoru və sabiq səhiyyə naziri Oqtay Şirəliyevin müavini olmuş Əbülfəz Abdullazadənin rəsmi qeydiyyat ünvanı olduğu da ortaya çıxıb. Şirkət 2016-cı ilin iyulunadək həmin ünvanda qeydiyyatda görünüb. Maraqlı orasıdır ki, "Səhiyyə orqanlarında qulluqda olan dövlət qulluqçularının etik davranış" Qaydalarına görə, dövlət qulluqçusu qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli, qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

Haqqında danışılan MMC ilə bağlı başqa diqqətçəkən detal da var. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, hazırda MMC-nin qanuni təmsilçisi Şirəliyev Bəhruz Əvəz oğludur. Sabiq səhiyyə naziri O.Şirəliyevlə eyni soyadı daşıyan bu şəxs vaxtilə "Rəvan" futbol klubunun vitse-prezidenti vəzifəsində çalışıb.

Bundan başqa, "Zeytun Pharmaceuticals" MMC "Farum Qafur" MMC ilə eyni hüquqi ünvanda qeydiyyatdadır. "Farum Qafur" MMC artıq ləğv edilib. Həmin şirkətin qanuni təmsilçisi Tağıyev Zamir Elşad oğlu olub.

Mediada gedən məlumatlara görə, Zamir Tağıyevin qanuni təmsilçisi olduğu başqa şirkətlər də var. Onlardan biri də "Azmedkom" MMC-dir. Artıq ləğv olunan bu şirkətin təsisçisi isə keçmiş Oqtay Şirəliyevin oğlu Kazım Şirəliyev olub.

Bir sözlə, tender yolu ilə milyonlarla manatlıq dərman vasitələrinin, o cümlədən peyvəndlərin ölkəyə gətirilməsində və aidiyyatı qurumlara satılmasında iştirak edən şirkətin arxasında sabiq nazirin keçmiş müavini ilə yaxınlarının birbaşa, yaxud dolayı şəkildə dayandığı yönündə iddialar var. Həmin iddialara isə qarşı tərəfdən hələ ki, heç bir reaksiya verilməyib.

***Toğrul Əliyev***

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:17 PM Page 10



# Oliqarx balalarının yeni ağlasığmaz macəraları

## Sabiq nazir oğlunun başı məhkəmələrdən açılmır, keçmiş icra başçısının oğlu 1 milyon manat vergini ödəməmk üçün ölkədən qaçıb - Sırada kimlər var?

***Azərbaycanda bir zamanlar yüksək vəzifə tutan və elə vəzifədə olarkən də oliqarxlaşan keçmiş iri məmurların övladları ilə bağlı qalmaqallı xəbərlər yenidən intensivləşib. Məsələn, yola salmaq üzrə olduğumuz həftə aydınlaşıb ki, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun oğlu Turqay Müslümlüyə məxsus olmuş ”Orion Global” MMC (VÖEN - 1005080711) barəsində İnzibati Xətalar Məcəlləsinin 430.4.-cü maddəsi ilə inzibati protokol tərtib edilib.***

”Orion Global” MMC barəsində tərtib olunan protokola Binəqədi Rayon Məhkəməsində hakim Zamiq Bağırovun sədrliyi ilə baxılacaq.

Məlumat üçün bildirək ki, İnzibati Xətalar Məcəlləsinin 430.4.-cü maddəsi avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə məsuliyyəti nəzərdə tutur.



Bu inzibati xətaya görə, hüquqi şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaitinin iyirmi faizindən otuz faizinədək məbləğdə cərimə edilir.

Qeyd edək ki, əvvəllər ”Orion Global” MMC-yə Turqay Müslümlü rəhbərlik edib. Hazırda şurkətin qanuni təmsilçisi Sadıqov Mirsadiq Sadıq oğludur.

Turqay Müslümlü daha öncə ”Orion Global” MMC ilə bərabər ”Orion Construction” MMC və ”Orion Cars” MMC-nin, onun qardaşı - Asim Müslümlü isə ”Orion Creativ Solutions” MMC-nin qanuni təmsilçisi olub.

Əvvəllər ”Orion Global” MMC-nin dövlət büdcəsinə böyük həcmdə vergi borcu yaranıb. Hazırda (23 oktyabr 2024-cü il tarixinə) isə həmin borc 6 min 359 manat 84 qəpikdir.

Xatırladaq ki, Səlim Müslümov 2021-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə ittiham irəli sürülüb. Sabiq nazir 13 ay həbsdə qaldıqdan sonra ev dustaqlığına buraxılıb.

Onu da qeyd edək ki, ”Orion Global” MMC barəsində daha əvvəl də çoxsaylı məhkəmə iddiaları qaldırılıb.

Bu arada Bakı Ağır Cinayətlər Məhkəməsində isə ”Uniklinika”nın baş həkimi Aruz Əliyevlə Etiram Kərimovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir. Hər iki şəxsə Cinayət Məcəlləsinin 178.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə ittiham verilib.

İş üzrə Zərdab və Mingəçevirin 14 il boyunca icra başçısı olmuş Lütvəli Babayevin oğlu Babəli Babazadənin adı zərərçəkən olaraq keçir. Babaəli Babazadə vergidən 1 milyon manat yayınmaqda suçlanır, hətta buna görə ölkədən qaçdığı iddiası da var.

Müttəhimlər 2 milyon manatlıq dələduzluqda ittiham olunurlar. Cinayət işinin materiallarına görə, Babaəli Babazadənin tikinti şirkətinin 1 milyon manatlıq vergi borcuna görə ona məktub gəlib. Həkim-cərrah olan dostu Aruz Əliyev ona ölkədən getməsini məsləhət görüb. Babaəli Babazadə Türkiyəyə qaçıb və Azərbaycandakı işlərinin yönəldilməsindən ötrü Aruz Əliyevə baş etibarnamə verib. Türkiyədə olduğu müddətdə onun bir evi və bir obyekti satılıb. İttihama görə, 2 milyon manatı təqsirləndirilən Aruz Əliyev və Etiram Kərimov mənimsəyib.

Təqsirləndirilən şəxslər bu ittihamı qəbul etmir, Babaəli Babazadənin onları şərlədiyini deyirlər. Bildirirlər ki, əmlakları sabiq icra başçısının oğlunun istəyi ilə satıb, pulu da özünə göndəriblər. Orada xərcləyib, indi atasının qorxusundan yalan danışır. Bu cinayət işi üzrə Babaəli Babazadə zərərçəkmiş, atası da şahid kimi dindirilib. Prosesdə müttəhimlərin vəkilləri müvəkkilləri barəsində qəti imkan tədbirinin dəyişdirilməsini istəyiblər. Aruz Əliyevin vəkili deyib ki, müvəkkili baş həkimdir, onun iş yeri bəllidir.

Çağırış göndərilmədən birbaşa axtarış elan olunub. Vəkilin fikrincə, məqsəd də istintaqdan yayınma görüntüsü yaradıb həbs qərarı çıxarılması olub: ”Dəvət olunmayan, iş yeri bəlli, daimi yaşayış yeri olan adam haqqında niyə birdən-birə həbs-qətimkan tədbiri seçilsin? Onun həbsdə saxlanması üçün heç bir əsas yoxdur”.

Aruz Əliyev və Etiram Kərimova ittiham verilən maddədə 14 ilədək həbs cəzası nəzərdə tutulub. Lütvəli Babayev 2005-2007-ci illərdə Mingəçevirin, 2007-2019-cu illərdə isə Zərdabın icra başçısı vəzifəsində çalışıb. Onun oğlu Azərbaycanda ”BLB” MMC-nin rəhbəri olub. 2021-ci ildə Moskvada ”Liqa-Stroy” MMC-ni təsis edib. Keçmiş icra başçısının ailəsinə məxsus daha bir şirkətsə ”Top Point” MMC-dir. Bu şirkət 2014-cü ildə Lütvəli Babayevin həyat yoldaşı Rübabə Babayevanın adına təsis olunub.

Proses oktyabrın 31-də davam etdiriləcək.

Xatırladaq ki, Azərbaycanda bəzi iri vəzifəli şəxslərin övladlarının adları mütəmadi olaraq qaranlıq işlərdə hallanır. Elə yuxarıda adları çəkilən iki eks-məmurun övladları barədə məhkəməyədək gedib çıxan faktlar da bu mənada ibrətamizdir. Valideynlərinin hökumətdə yüksək post tutması sayəsində birdən-birə iri biznes sahibi kimi ”peyda” olan ”papanın gül balaları”, eyni zamanda elə həmin valideynlərinin nüfuzuna arxalanaraq özlərini ”toxunulmaz” sayır və ağlasığmaz qanunsuzluqlara rahatlıqla qol qoya bilirlər.

Bir çox hallarda onların bu arxayınçılığı elə həddə çatır ki, yalnız ictimaiyyətdə yox, elə hökumət kulislərində də qıcıq doğurur və hüquqi məsuliyyət qaçılmaza çevirilir. Eynilə indi Səlim Müslümovla Lütvəli Babayevin övladlarının başına gəldiyi kimi!

Vəzifədə olarkən adları daha çox korrupsiya ittihamları ilə gündəmə gələn, elə bu səbəbdən də postları ilə vidalaşmaq məcburiyyətində qalan eks-nazirlə sabiq icra başçısının oğullarının aqibəti digər oliqarx övladlarına, ”papanın gül balalarına” görk olmalıdır. Əks təqdirdə qarşıdakı dövrdə başqa oliqarxlaşmış məmurların korrupsiya pulları hesabına biznes sahibinə çevrilən, üstəlik də özlərini ”toxunulmaz” sayan övladlarının başına da oxşar qalmaqalların gəlməsi təəccüb doğurmayacaq...

**Sənan Mirzə**

# Agentlikdən xaricdə təhsil almaq istəyənlərə çağırış

***Son dövrlər sosial media hesablarında ölkədən kənara çıxmadan əyani formada xaricdə magistratura səviyyəsi üzrə təhsil alına biləcəyi və sonda diplomların Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən rəsmi qaydada tanınacağı vədi verilir.***



TKTA-dan məsələ ilə bağlı “Unikal”a bildirilib ki, agentlik xaricdə təhsil sahəsində, o cümlədən tanınma prosedurları ilə bağlı heç bir şirkətlə və ya universitetlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə heç bir məsuliyyət daşımır.

”Xaricdə əldə olunmuş kvalifikasiyaların tanınması ilə bağlı icraat Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları” əsasında həyata keçirilir və Qaydaların 4.1.4-cü yarımbəndinə əsasən orta ixtisas təhsili, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələrinə uyğun kvalifikasiyalara münasibətdə ərizəçinin hər bir tədris ili ərzində müvafiq kvalifikasiya üzrə nəzərdə tutulmuş təhsilin normativ müddətinin azı yarısı qədər təhsil aldığı ölkənin ərazisində olması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində təhsil aldığı ölkənin ərazisində olması); 4.1.5-ci yarımbəndinə əsasən orta ixtisas təhsili, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələrinə uyğun kvalifikasiyalara münasibətdə ərizəçinin tədris müddətinin azı üçdə ikisində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması) tələb olunur.

Xaricdə ali təhsil almaq istəyən vətəndaşları və onların ailə üzvlərini qeyd olunanları nəzərə almağa çağırırıq”, - deyə məlumatda qeyd olunub.

# Füzuli şəhərinə məktəblilərin infoturu təşkil olunub

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması tədbirləri çərçivəsində Füzuli şəhərinə infotur təşkil edib. İnfotur Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə keçirilib.***



”Unikal” xəbər verir ki, infoturun iştirakçısı olan Füzuli rayonundan olan məktəblilərə Prezident İlham Əliyevin tapşırığı ilə Füzuli şəhərində aparılan bərpa-quruculuq işləri, Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası barədə məlumat verilib.

Bildirilib ki, indiyədək Füzuli şəhərində 823 ailənin (3136 nəfərin) məskunlaşması təmin edilib. Məktəblilər Füzuli şəhərində yeni salınmış yaşayış binaları, parklar, məktəb və digər yerlərlə tanış olublar. Böyük Qayıdışa dair Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində işğaldan azad edilmiş ərazilərə infoturlar davam etdiriləcəkdir.

## Ağsunun 2024-cü ilin yanvar-sentyabr aylarında ticarətin əsas göstəriciləri

***2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkələrində istehlakçılara 159194,7 min manatlıq məhsul satılmış,88507,1 min manatını (55,6 faiz) ərzaq məhsulları, içkilər və tütün məmulatları, 70687,6 min manatını (44,4 faiz) qeyri-ərzaq malları təşkil etmişdir.***

2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 100 faiz olmuşdur, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 11,1 faiz azalmış, qeyri-ərzaq malları üzrə isə 18,8 faiz çoxalmışdır.

**Cədvəl 14**

**Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu**

| | 2024-cü ilin yanvar-sentyabr ayları, min manat | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi | 159194,7 | 100 | 100 |
| o cümlədən: | | | |
| ərzaq məhsulları, içkilər və tütün məmulatları | 88507,1 | 55,6 | 88,9 |
| qeyri-ərzaq malları | 70687,6 | 44,4 | 118,8 |

Pərakəndə ticarət dövriyyəsinin 11,5 faizini hüquqi şəxslər (ondan hamısı qeyri-dövlət ticarət müəssisələri), 47,5 faizini fərdi sahibkarlar tərəfindən, 88,5 faizini bazar və yarmarkalarda satılmış məhsulların həcmi təşkil etmişdir.

**Cədvəl 15**

**Məhsul bazarı üzrə əsas göstəricilər**

| | 2024-cü ilin yanvar-sentyabr ayları, min manat | 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi | 159194,7 | 100 |
| o cümlədən: | | |
| müəssisələr üzrə | 18296,9 | 114,5 |
| fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə | 140864,0 | 98,4 |

**Qrafik 8**

**2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu, min manatla**




**Cədvəl 16**

**2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin dinamikası**

| | Əvvəlki ilə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | o cümlədən: qeyri-ərzaq malları üzrə |
| **2024-cü il** | | | |
| Yanvar-sentyabr | 100 | 88,9 | 118,8 |
| **2023-cü il** | | | |
| Yanvar-sentyabr | 97,8 | 87,2 | 121,8 |

2024-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkələrində əmtəə qalığının həcmi 5447,3 min manat təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin həcmində qeyri-dövlət sektoru 100,0 faiz təşkil etmişdir.

*Ağsu Rayon Statistika İdarəsinin baş məsləhətçisi Leyla Cəbrayılova*

# Bəzi məmurların biznesmenlərin əli ilə ölkədən qaçırdığı pullar...

## Ölkəyə mal gətirmək adı ilə böyük məbləğdə vəsaiti xaricə çıxaranların həbsi başladı - İşin içində kimlər var?

***Bu günlərdə məlum oldu ki, kənd təsərrüfatı məhsullarının ixracından əldə olunan külli miqdarda pul vəsaitlərini ölkəyə qaytarmayan şəxslər həbs edilib. Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, xarici iqtisadi fəaliyyətlə məşğul olan bəzi sahibkarlıq subyektləri tərəfindən müvafiq valyutada olan pul vəsaitlərinin Azərbaycan Respublikasına qaytarılmamasına dair Dövlət Gömrük Komitəsindən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş materiallar əsasında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.***

İstintaqla Rüfət Qarayev, Elnur Qarayev, İbrahim Lalayev, Elməddin Muxtarov və qeyrilərinin cinayətkar niyyətlə təsis etdikləri "Land Lojistics", "International Lojistics" Məhdud Məsuliyyətli Cəmiyyətləri ilə xarici ölkələrdə fəaliyyət göstərən şirkətlər arasında müxtəlif növ kənd təsərrüfatı məhsullarının alqı-satqısına dair müqavilələr bağlayaraq əldə olunan ümumilikdə 85.5 milyon ABŞ dollarından artıq məbləğdə pul vəsaitini (müvafiq dövrün məzənnəsi ilə 145,4 milyon manatdan artıq) vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarmayıblar.



Toplanmış sübutlar əsasında həmin şəxslərə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 313-cü (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilib, Rüfət Qarayev, İbrahim Lalayev və Muxtarov Elməddin barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi rayon məhkəməsinin qərarı ilə həbs, Elnur Qarayev barəsində isə istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Bundan başqa, Nizami Abdullayev, Elşad Rzayev və digərlərinin cinayətkar niyyətlə təsis etdikləri "Fresh Fruits Az" MMC ilə xarici ölkələrdə fəaliyyət göstərən şirkətlər arasında müxtəlif növ kənd təsərrüfatı məhsullarının alqı-satqısına dair müqavilələr bağlayaraq əldə olunan ümumilikdə 8,8 milyon ABŞ dollarından artıq məbləğdə pul vəsaitini (müvafiq dövrün məzənnəsi ilə 15 milyon manatdan artıq) vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarmayıblar.

Qeyd olunan şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2, 308.2, 313-cü və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, Nizami Abdullayev barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi rayon məhkəməsinin qərarı ilə həbs, Elşad Rzayev barəsində isə istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Hazırda Dövlət Gömrük Komitəsindən daxil olmuş digər bu kateqoriya materiallar üzrə, yəni mal və məhsul ixrac etməklə əldə edilən pul vəsaitini Azərbaycan Respublikasının müvəkkil bank hesablarına qaytarmamış şəxslər barəsində prokurorluq orqanlarında cinayət işləri başlanaraq araşdırılır və zəruri tədbirlər icra olunur.

Xatırladaq ki, "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na əsasən, hüquqi və fiziki şəxslər ixrac etdikləri malların müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 gün ərzində Azərbaycandakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etməlidirlər.

İxrac olunan malların müqabilində əldə olunmuş vəsaitin Azərbaycana köçürülməsinə və gətirilməsinə, müvafiq olaraq, Azərbaycan Mərkəzi Bankı və Dövlət Gömrük Komitəsi nəzarət edir. Bu məqsədlə Dövlət Gömrük Komitəsi ixrac olunan mallar barədə məlumatların elektron gömrük xidməti vasitəsilə Mərkəzi Banka ötürülməsini təmin edir.

Milli Məclisin deputatı Vüqar Bayramov "Sputnik Azərbaycan"a bildirib ki, İqtisadi Şuranın iclasında müzakirə edilən məsələlərdən biri Azərbaycandan xaricə pul köçürmələri və ixrac dəyərinin tam qaytarılması ilə bağlı olub: "Prezident İlham Əliyevin sentyabrın 26-da keçirilən müşavirədəki tapşırıqlarına uyğun olaraq, bu sahədə nəzarətin daha da gücləndirilməsi prioritetləşib. Burada ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin 180 gün ərzində ölkəyə gətirilməsi, fiziki və hüquqi şəxslər üzrə ölkəyə qaytarılmayan valyuta vəsaitləri ilə bağlı məsələlər öz əksini tapır".

Deputat diqqətə çatdırıb ki, bu ilin geridə qalan aylarının rəsmi statistikası göstərir ki, ixrac miqdarının azalmasına baxmayaraq, pul köçürmələrində artım müşahidə olunur: "Bu ilin ilk 7 ayında ölkəmizin ticarət dövriyyəsi 26,2 milyard dollar olub. Onun 15,4 milyard dolları ixracın, 10,7 milyard dolları isə idxalın payına düşüb. Keçən ilin yanvar-iyul ayları ilə müqayisədə idxal 3,0 faiz, ixrac 6,1 faiz azalıb. Enerji məhsullarının qiymətinin azalması ümumi ixracatımızın miqdarına da təsirsiz ötüşməyb. Bütün bunlar ilə yanaşı, bu ilin ilk yarısında (hələlik 7 aylıq göstəricilər elan edilməyib) Azərbaycandan xaricə 343 milyon dollar pul köçürülüb. Xaricdən ölkəmizə köçürülən vəsaitlər 36,4 faiz azalsa da Azərbaycandan xaricə vəsait köçürmələri 34,7 faiz artıb".

"Rəsmi statistika da təsdiq edir ki, Azərbaycandan xaricə pul köçürmələri və eləcə də ixracın dəyərinin ölkəyə tam qaytarılması üzrə nəzarətin daha da gücləndirilməsi aktuallaşıb. Daha çox valyutanın ölkədə qalması isə hər zaman əsas hədəflərdəndir" - deputat əlavə edib.

"Unikal" olaraq qeyd edək ki, bəzi ekspertlər külli miqdarda pul vəsaitlərini guya mal gətirmək adı ilə ölkədən çıxaran sahibkarların, yaxud həmin sahibkarlara məxsus şirkətlərin bir çoxunun arxasında müəyyən məmurların dayandığını iddia edirlər. Belə düşünənlərin fikrincə, bəzi vəzifəli şəxslər qazandıqları böyük məbləğdə pulları məhz həmin yolla ölkədən çıxarmağa başlayıblar. "Elə rəsmi statistikaya əsasən ixrac miqdarının azalmasına baxmayaraq, pul köçürmələrində artım müşahidə olunmasının səbəblərindən birini də bunda axtarmaq lazımdır" - bir sıra mütəxəssislərin mövzu ilə bağlı qənaəti belədir.

Son zamanlar ölkədən kənarda müxtəlif məmurlara məxsus mülklərin, bizneslərin ortaya çıxması da məlum iddianın inandırıcılıq ehtimalını qüvvətləndirir. Həmin mülklərin, bizneslərin daha çox qanunsuz şəkildə ölkədən çıxarılmış pullar hesabına əldə edildiyini düşünmək üçün ciddi əsaslar var. Odur ki, ölkəyə mal gətirmək adı ilə böyük məbləğdə vəsaiti xaricə çıxaran sahibkarların, şirkət rəhbərlərinin həbs prosesinin müəyyən məmurlaradək uzana biləcəyi istisna deyil...

***Sənan Mirzə***

37_27 IYUI-QARA.qxd 10/24/2024 9:17 PM Page 12



**5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İnternetə əlçatanlıq söz azadlığının təmin olunmasında əsas rol oynayır

## Osman Gündüz: "BMT son illər internetə əlçatanlığı insanların əsas fundamental hüquqlarından biri olaraq qəbul edib"



***Azərbaycanda fikir, söz və məlumat azadlığı, plüralizmin qorunub-saxlanılması, bu prinsiplərin, daha da inkişaf etdirilməsi təmin edilir. Ölkəmizdə azad media azad sözün, insan hüquqları və azadlıqlarının qoruyucusu rolunda çıxış edir.***

Hazırda ölkədə hər kəsin müstəqil fikir bildirmək, məlumat almaq, yaymaq, istənilən məsələyə mövqeyini sərgiləmək və hüquqlarını tələb etmək imkanı var. Elə hər bir cəmiyyətin əsas azadlıqları, fikir, söz və məlumat azadlıqlarından başlayır. Plüralist cəmiyyətin yetişməsi üçün fikir, söz, məlumat azadlığının təmin olunması əsas şərtlərdəndir. Ölkəmizdə uzun illərdir fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi istiqamətində vacib işlər həyata keçirilir. Sosial şəbəkələr və internet mediası fikir, söz azadlığının təmin olunmasında önəmli yer tutur. Bu gün hər bir ölkə vətəndaşı öz bloqunda, yaxud sosial platformada fikrini açıq şəkildə ifadə edə bilir. Müasir dövrdə fikir və söz azadlığının əsas təminatlarından biri də əhalinin internetə əlçatanlığıdır.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışında bildirib ki, Azərbaycan vətəndaşlarının 39 faizinin genişzolaqlı internetə çıxışı təmin olunub. O bildirib ki, Xəzər dənizinin dibi ilə yeni internet xəttinin çəkilişi nəticəsində ölkədəki bütün ev təsərrüfatlarının genişzolaqlı internetə çıxışı olacaq. Nazir 2024-cü ilin sonuna kimi bu rəqəmin 100 faiz təşkil edəcəyini qeyd edib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən sorğumuza cavabda bildirdilər ki, "Onlayn Azərbaycan" layihəsi çərçivəsində 2024-cü ilin 6 ayı ərzində Azərbaycanda 0,8 milyon ev təsərrüfatı və biznes subyektinin genişzolaqlı internetə çıxış imkanı yaradılıb. Ümumilikdə ölkədə 2,7 milyon təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin olunub.

Layihə müddətində ölkədə genişzolaqlı internetə çıxış imkanı əldə etmiş ev təsərrüfatı və biznes subyektlərinin sayı 12 dəfə artaraq 9%-dən 92%-ə yüksəlib. Cari ilin ilk 6 ayı ərzində 2020-ci illə müqayisədə 5 dəfə çox təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin edilib və toplam əhatə 26% artıb. Artıq ölkənin 30 rayonunda 90%-dən çox, 23 rayonunda 70-90% arası və digərlərində isə 65%-ə qədər təsərrüfatın genişzolaqlı internetə çıxışı təmin edilib. Sözügedən layihə çərçivəsində 2024-cü ilin sonunadək ölkə ərazisində bütün ev təsərrüfatı və biznes subyektlərinin GPON və digər genişzolaqlı texnologiyalar vasitəsilə genişzolaqlı internetlə təmin edilməsi, yüksəksürətli internetdən istifadənin genişləndirilməsi və sabit genişzolaqlı internet abunəçilərinin faizinin artırılması planlaşdırılır.

Qeyd edək ki, əhalinin internetə çıxış imkanının artması cəmiyyətdə dezinformasiyanın da qarşısını alır.

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Unikal" qəzetinə müsahibəsində bildirib ki, BMT son illər internetə əlçatanlığı insanların əsas fundamental hüquqlarından biri olaraq qəbul edib. Onun sözlərinə görə, BMT -nin və Dünya Bankının bununla bağlı göstəriciləri var.

"Bu qurumların prinsiplərinə görə internetə əlçatanlıq yalnız texnoloji infrastrukturun mövcudluğunu, anlaşıqlı desək evin qarşısında fiber optik kabel dirəklərinin sayının çoxluğunu nəzərdə tutmur. Əlçatanlıq dedikdə həm də internet üçün müvafiq tarif seçimi imkanlarından, şəffaflıqdan, təhlükəsizlikdən söhbət gedir. BMT isə hətta son illər internetə əlçatanlığı insanların əsas fundamental hüquqlarından biri olaraq qəbul edib", deyə müsahibimiz bildirib.

O. Gündüz deyir ki, son iki-üç ildə RİNN tərəfindən dövlət-özəl provayderlərlə birgə aparılan nəhəng infrastruktur işlərini nəzərə alsaq, 15 avqust tarixinədək Azərbaycanda keyfiyyətli internetə əlçatanlığın təmin edildiyini birmənalı olaraq demək olardı. Lakin həmin prinsiplərlə yanaşsaq 15 avqustdan sonra ölkədə internetə əlçatanlıqla bağlı suala birmənalı cavab vermək mümkün deyil. Xüsusilə də regionlarda, yalnız Aztelekom dövlət provayderinin və təbii inhisarçının hökmranlıq etdiyi yerlərdə artıq internetə əlçatanlıq prinsipi pozulub.

"Əgər insanların internet üçün ağlabatan tarif seçimi imkanı yoxdursa, bu səbəbdən internetdən imtina edirsə, "şərikli internet"ə üstünlük verirsə, o zaman yuxarıdakı qurumların prinsiplərinə görə ölkəmizdə keyfiyyətli "əlçatan internet" in olması şübhə doğurur. Ümid edirəm RİNN, Beynəlxalq Reytinqləri ölçən Komissiya, Ombudsman, Antiinhisar da bunun fərqindədir. Dünya Bankı da elə bu günlərdə bununla bağlı anonim sorğulara başlamalıdır. BMT-nin "elektron hazırlıq" üzrə qiymətləndirmələri olacaq. Məhz seçim imkanının olmaması ucbatından "insanların əsas fundamental hüququndan", internetdən imtina edilməsi normal qarşılana bilməz. Regionlardan isə internetdən imtina edənlərin və şərikli internet seçənlərin çox olduğu bildirilir. Aztelekom, İKTA bunların sayı haqqında heç bir məlumat açıqlamayıb. Müşahidələr göstərir ki, problemlə bağlı Antiinhisara və İKTA-ya çoxsaylı şikayətlər göndərilib. Xatırladıram ki, internet tarifləri ilə bağlı "seçim imkanının pozulması" və "kartel sövdələşməsi"nin mövcudluğu ilə bağlı Antiinhisar -ın araşdırması hələ də davam edir", deyə Osman Gündüz bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Qəhrəmanlıq simvolu

***44 gündə Azərbaycanın yeni, şanlı tarixini yazan qeyrətli oğullardan söz düşəndə şəhid mayor Kamran Fərəcovun adı qürurla, böyük iftixarla çəkilir. Bütöv bir xalqın qəhrəmanlıq simvoluna dönən bu, Vətən sevdalısı Astara rayonu, Səncərədi kəndində boya-başa çatıb. Özündən artıq sevdiyi doğma Vətənin müqəddəsliyinə tapınan igid 42 yaşında canını ona fəda edib.***

Vətən torpaqlarının 20 faizi yağı tapdağında olan Kamran Fərəcov orta məktəbi bitirib ömrünü hərbiyə bağlayıb. Belə ki, 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbinin Taktiki Tank Qoşunları komandiri fakültəsinə daxil olub. Burada 4 il müddətində mükəmməl hərbi sirlərinə yiyələnib. Sonra yağıdan qisas almaq məqsədilə cəbhə bölgəsinə yollanıb, leytenant rütbəsində Ağdamda, Gəncədə, Goranboyda doğma Vətənini göz-bəbəyi kimi qoruyub və məqamı gələndə döyüş meydanında erməni dığalarına gücünü göstərməyə hər an hazır olub.

Savadlı, peşəkar, cəsur zabit mayor rütbəsinə layiq görülüb. Səhhəti ilə bağlı o, ehtiyata buraxılıb. Qaldı ki, erməni dığalardan alacağı öcə görə yenidən orduya gedib. 2020-ci ilin sentyabrın 20-də könüllü təlimlərə qatılıb, məqsədinə çatmaq üçün şəxsi heyəti döyüşə hazırlayıb. Vətən müharibəsi başlanan ilk gündən yerini odlu-alovlu səngərdə alıb. Cəbrayılda, Qubadlıda düşmənə qan qusdurub. Neçə-neçə savaşın qəhrəmanı olan igid komandir oktyabrın 21-də düşmən gülləsinə tuş gəlib, Vətən eşqli ürəyi əbədi dayanıb.

Şərəfli ölümü ilə milyonların qəlbində abidə ucaldan, mənən diri qalaraq əbədi yaşamaq hüququnu qazanan şəhid mayor "Vətən uğrunda", "İgidliyə görə" və digər medallarla təltif olunub. Hazırda qoyub getdiyi halal ailə ocağında 2 əkiz qız ı- Dəniz və Şəms ataların adına şərəf olmaq üçün dərslərini "əla" oxuyur, vətənpərvərlik ruhunda boy atırlar.

Hər cür sevgi və məhəbbətə layiq olan şəhid mayor Kamran Fərəcov astaralıların qəlbində yaşamaqla həmişə böyük ehtiramla anılır. Qəhrəmanın şəhadətə qovuşmağın dördüncü ilində məzarının başına yenə də çoxlu adam toplanmışdı.

Onu da bildirim ki, şəhid mayorun ömürgün yoldaşı Nurana müəllim Astara Pedaqoji Kollecində çalışır. Kollecin direktoru, şəhid atası Kamran Kazımov və əməkdaşları şəhidin uyuduğu müqəddəs yeri ziyarət etdilər, önünə əkil qoyub, tər güllər düzdülər. Söhbət zamanı kollecin direktoru dedi:

- Zəfər şəhidimiz Kamran Fərəcov Vətənini, xalqını çox sevirdi. Elə onu vətənpərvərliyin ən ali məqamına - şəhidlik zirvəsinə ucaldan bu ilahi sevgi olub. İndi Kamran hər bir Azərbaycan vətəndaşı üçün doğma və əzizdir. Qərinələr boyunca belə olacaq, həmçinin ölməzliyə qovuşan qəhrəmanın həyat yolu gələn nəsillərə də örnək göstəriləcək...

***Zəfər Orucoğlu, AJB üzvü***

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:18 PM Page 13



# “SİMA İmza” beynəlxalq mükafata layiq görüldü




***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “AzInTelecom” MMC Böyük Britaniyanın “The Global Economics” jurnalı tərəfindən beynəlxalq mükafata layiq görülüb.***

“AzInTelecom” MMC-yə məxsus “SİMA İmza” mobil tətbiqi jurnal tərəfindən keçirilən səsvermədə ilin ən yaxşı biometrik rəqəmsal imza tətbiqi seçilib. Mükafat 2025-ci ilin yanvar ayında Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək mərasimdə “AzInTelecom” MMC-nin rəsmi nümayəndəsinə təqdim olunacaq.

Qeyd edək ki, “The Global Economics” Böyük Britaniyada yerləşən maliyyə nəşri və biznes jurnalıdır. Jurnal dünyada biznes və maliyyə sektorlarına dair ətraflı araşdırmalar həyata keçirir. 2019-cu ildən etibarən hər il biznes sektorunda uğurlu fəaliyyətə malik şirkətləri müəyyən edərək “Global Economics” proqramı çərçivəsində mükafatlandırır.

Məlumat üçün bildirək ki, “SİMA İmza” mobil tətbiqi 2022-ci ildə yaradılıb. 2024-cü ildə tərəfdaşlarının sayını 60-a çatdıran “SİMA İmza” tətbiqinin hüquqi şəxs həlli istifadəyə verilib. Bir çox hökumət portallarına, bank və maliyyə təşkilatlarına, özəl qurumlara inteqrasiyası tamamlanıb. Bu il “SİMA İmza” tətbiqinin yüklənilmə sayı 2,5 milyonu ötüb. “Digital Login” vahid giriş sistemi üzərindən 140-dan çox elektron xidmətə “SİMA İmza” ilə məsafədən əlçatanlıq təmin edilib.

# Polis kartdan oğurluq edənləri saxlayıb



***Bakı şəhər sakini olan bir nəfərin bank kartından oğurluq edilməsi barədə polisə məlumat daxil olub.***

”Unikal” xəbər verir ki, Nərimanov RPİ 18-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən aparılan araşdırmalarla 4691 manat vəsaitin həmin şəxsin mobil telefonunda olan tətbiq vasitəsilə oğurlanması məlum olub.

Oğurluq əməlində şübhəli bilinən 18 yaşlı N.Aslanov müəyyən olunaraq polis əməkdaşları tərəfindən saxlanılıb.

Binəqədi RPİ 4-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə isə bir nəfərin içərisində pulu, sənədi və bank kartı olan pulqabısını, sonradan həmin bank kartı ilə alış-veriş edərək vəsaitini oğurlamaqda şübhəli bilinən 42 yaşlı M.Ramazanov müəyyən olunaraq saxlanılıb.

Hər iki faktla bağlı araşdırmalar aparılır.

# Dələduzluğa görə axtarışda olan 10 nəfər tutuldu



***Polis əməkdaşlarının oktyabrın 23-də keçirdikləri əməliyyat tədbirləri ilə dələduzluğa görə axtarışda olan 10 nəfər saxlanılaraq istintaqa təhvil verilib.***

”Unikal” xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

# Zəngilanda 1 ton yabanı çətənə bitkisi məhv edildi

***Zəngilanda 1 ton yabanı çətənə bitkisi məhv edilib.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan ”Unikal”a verilən məlumata görə, Zəngilan Rayon Polis Şöbəsi Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə ”Xaş-xaş 2024” planına uyğun olaraq tədbir keçirilib.

Tədbir zamanı Yenikənd kəndi ərazisində yabanı halda bitən 1 ton çətənə bitkisi toplanılaraq məhv edilib.

# 1400-dək taksi sürücüsü imtahan verəcək - DİM

***Oktyabrın 27-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün növbəti dəfə imtahan keçiriləcək.***



DİM-dən “Unikal”a verilən məlumata görə, həmin gün beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin hazırlıq səviyyəsinin qiymətləndirilməsi məqsədilə də imtahanlar təşkil olunacaq. İmtahanlarda iştirak etmək üçün ümumilikdə 1398 nəfər qeydiyyatdan keçib.

Xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün imtahan Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda (Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov, 50. TÜRKPA-nın yanı) və DİM-in Gəncə Regional bölməsində, beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin xüsusi hazırlığının nəticələrinin qiymətləndirilməsi məqsədilə imtahanlar isə Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda (Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov, 50. TÜRKPA-nın yanı) kompüter vasitəsilə elektron qaydada keçiriləcək. İmtahana buraxılış vərəqəsində göstərilən vaxtda gəlmək lazımdır.

İmtahan iştirakçıları imtahanı yekunlaşdırdıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda nəticələrlə tanış olmaq imkanına malik olacaqlar. Nəticələr həmçinin növbəti gün DİM-in saytına yerləşdiriləcək.

Namizədlər “İmtahana buraxılış vərəqəsi”ni ”Elektron imtahanlara buraxılış vərəqələri və nəticələrin çapı” xidməti vasitəsilə çap edə bilərlər. İştirakçılar ”İmtahana buraxılış vərəqəsi”ndə göstərilən vaxtda imtahan binasının qarşısında olmalıdırlar.

İmtahana gələrkən namizədlər ”İmtahana buraxılış vərəqəsi” və şəxsiyyət vəsiqəsinin əslini mütləq təqdim etməlidirlər. Göstərilən sənədlərdən biri olmadıqda və ya onlar arasında uyğunsuzluq olduqda namizəd imtahana buraxılmayacaq.

İmtahanlar 1 saat davam edəcək. İmtahan zamanı taksi minik avtomobili sürücülərinə xüsusi hazırlığın proqramını əhatə edən, etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair 20 test tapşırığı, beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə isə peşəkarlıq səriştəsinə dair 25 test tapşırığı təqdim ediləcək. Hər tapşırığın düzgün cavabı 1 balla qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. 10 və daha çox bal toplamış taksi minik avtomobili sürücüləri, 15 və daha çox bal toplamış beynəlxalq yük daşımalarını həyata keçirən sürücülər imtahanı müvəffəqiyyətlə vermiş sayılırlar və onlara müvafiq şəhadətnamələr təqdim edilir.

“Yaddaş kitabçası” ilə buradan tanış ola bilərsiniz. İmtahan iştirakçılarından xahiş edirik ki, kitabça ilə mütləq tanış olsunlar.

# 2024-ün birinci yarımilliyində Yevlax şəhəri üzrə “əmtəə bazarı” göstəriciləri

***1 iyul 2024-cü ilə ticarət fəaliyyəti üzrə qeydiyyatdan 298 müəssisə keçmiş, onlardan hesabat verməli 60 müəsisə olduğu halda hesabat dövründə 29 müəssisə fəaliyyət göstərmiş, 31 müəssisənin isə fəaliyyəti olmamışdır.***



Seçməyə düşən 187 fiziki şəxsin 182-si hesabat təqdim etmiş, 5 fiziki şəxsin isə fəaliyyəti olmamışdır.

2024-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi 273329,7 min manat olmuş və keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 0,2 faiz artmışdır.

2024-cü ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsində Yevlax rayon üzrə pərakəndə ticarət dövriyyəsi 1,0 faiz təşkil etmişdir.

2024-cü ilin iyul ayının 1-i vəziyyətinə 150 fərdi sahibkarın və 410 fərdi şəxsin məşğul olduğu 560 ticarət yerinə malik, 9200 kv.m sahəsi olan ərzaq və qeyri ərzaq malları bazarı fəaliyyət göstərir.

Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 57,4 faiz, yəni 156767,7 min manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 42,6 faiz, yəni 116562,0 min manat olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında ticarət şəbəkəsindən rayonun hər bir sakini orta hesabla 1944,0 manat və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 manat az istehlak malları almışdır.

2024-cü ilin yanvar-iyun aylarında hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən keçən ilin müvafiq dövrü ilə müqayisədə əhaliyə faktiki qiymətlərlə 0,1 faiz az, müqayisəli qiymətlərlə isə 0,3 faiz az istehlak malları satılmışdır.

2024-cü ilin hesabat dövründə pərakəndə satışın 8,7 faizini (23762,0 min manatını) rəsmi qeydiyyatdan keçmiş müəssisələr, 47,6 faizini, (130108,3 min manatını) bazar və yarmarkalar, 43,7 faizini, (119459,4 min manatını) isə fiziki şəxslər təşkil etmişdir.

Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən əhaliyə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 151,7 min manat az istehlak malları satılmışdır.

2024-cü ilin yanvar-iyun aylarında topdansatış ticarət dövriyyəsi 4613,7 min manat təşkil edərək, əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,1 faiz və ya 50,3 min manat çox olmuşdur.

2024-cü il iyul ayının 1-i tarixinə ticarət şəbəkə və anbarlarında əhalinin tələbatını təmin etmək üçün 25847,9 min manatlıq mal ehtiyatları olmuşdur.

Mal ehtiyatlarının 2373,9 min manatı rəsmi qeydiyatdan keçmiş müəssisələrin, o cümlədən 2333,7 min manatı iri, orta və kiçik müəssisələrin, 40,2 min manatı mikro müəssisələrin, 23474,0 min manatı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların şəbəkələrində və anbarlarında olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi***
***Mehriyyə Vəliyeva***

37_27 IYUl-QARA.qxd 10/24/2024 9:18 PM Page 15



## Rusiyadan Zelenskinin mesajına cavab




***Xəbər verdiyimiz kimi, Ukrayna prezidenti Volodimir Zelenski xalqa axşam videomüraciəti zamanı üzərində qeyri-adi yazı olan geyimi ilə diqqət çəkib. Söhbət "Rusiyanı yenidən kiçik edək" yazısından gedir.***

"Unikal" xəbər verir ki, Ukrayna liderinin bu mesajına Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova cavab verib.

"Yenidən kiçik yeni SSRİ, Rusiya imperiyası kimi?" Görürəm, rus Kiyevi kimi. Bunun üçün bizə Kiyev lazımdır", - Zaxarova deyib.

O, Zelenskini bu addımına görə axmaq adlandırıb.

***Ağarza Elçinoğlu***

## HƏMAS hələ də yeni lider seçə bilməyib

***Fələstinin HƏMAS qruplaşması Qəzza zolağında siyasi bürosunun rəhbəri Yəhya Sinvarın öldürülməsindən sonra hələ yeni lider seçməyib.***

"Unikal" xəbər verir ki, bu barədə siyasi büro rəhbərinin müavini Musa Əbu Mərzuk deyib.

Onun sözlərinə görə, müzakirələr davam edir. Mərzuk qeyd edib ki, hərəkatın yeni liderinin adı rəsmi olaraq açıqlanacaq və təhlükəsizlik baxımından gizli saxlanılmayacaq.

Bundan əvvəl BBC qrup nümayəndəsinə istinadən yazmışdı ki, HƏMAS qruplaşması yeni liderinin adını açıqlamaq niyyətində deyil.

Sinvarın varisləri arasında Məhəmməd Dervişa, Xəlil əl Haya, Məhəmməd Nazal və Xalid Meşal var.

***Ağarza Elçinoğlu***

## Ukraynanın eks-prezidentinin oğlu Rusiya vətəndaşlığını aldı

***Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviçin oğlu Aleksandr Rusiya vətəndaşlığı alıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın "RİA Novosti" sənədlərə istinadən məlumat yayıb.

Sənədlərə görə, keçmiş Ukrayna liderinin oğlu Rusiyada bizneslə məşğuldur. Onun 10 il əvvəl Sankt-Peterburqda qeydiyyatdan keçirdiyi şirkət var. Aleksandr Yanukoviçin əsas fəaliyyəti maliyyə və sənaye qruplarının idarə edilməsidir.

Keçən ilin dekabrında Avropa İttifaqı məhkəməsi Viktor Yanukoviç və oğlu Aleksandrın Ukraynada anti-korrupsiya təqibləri ilə bağlı sanksiya siyahısından çıxarılmasına qərar verib.

***Gülayə Mecid***

## "Cənubi Qafqazda dəhlizlərin açılması yalnız Rusiyanın iştirakı ilə mümkündür" - Zaxarova

***Cənubi Qafqazda iqtisadi və nəqliyyat dəhlizlərinin açılması yalnız Rusiyanın iştirakı ilə mümkündür.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlayıb.

O, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı sualı belə cavablandırıb: "Burada məsələ ümid və ya onun yoxluğunda deyil, qarşılıqlı məqbul nəticəyə nail olmaq, həm Bakıya, həm də İrəvana uyğun gələn qarşılıqlı məqbul həll yolu tapmaqdır. Azərbaycan uzun müddətdir ki, bu istiqamətdə fəal işləyir. Ona görə də biz bu istiqamətdə işləyirik".

***Ağarza Elçinoğlu***

# Türkiyə TUSAŞ-dakı terrora cavab olaraq PKK-nin hədəflərini məhv etdi

***Türkiyə Milli Müdafiə Nazirliyi (MSB) TUSAŞ-dakı terrora cavab olaraq PKK-nin mövqelərinə zərbələr endirib, terrorçuların kəşfiyyat, energetika, logistika infrastrukturu və silah anbarları məhv edilib.***



"Unikal" xəbər verir ki, Milli Müdafiə Nazirliyi İraq və Suriyada həyata keçirilən hava əməliyyatlarında PKK-nın 32 hədəfinin məhv edildiyini açıqlayıb.

Nazirlikdən edilən yazılı açıqlamada, "PKK/KCK və digər terror ünsürlərini zərərsizləşdirərək xalqımıza və təhlükəsizlik qüvvələrimizə qarşı terror hücumlarını aradan qaldırmaq və sərhəd təhlükəsizliyimizi təmin etmək məqsədilə İraq və Suriyanın şimalında terrorçu hədəflərə qarşı hava əməliyyatı həyata keçirilib. Terrorçulara məxsus ümumilikdə 32 hədəf və çoxlu sayda terrorçu məhv edilib", - qeyd olunub.

***Gülayə Mecid***

# "NATO-nun bəzi ölkələri Ukraynanın alyansa daxil olmasına qarşıdır" - KİV

***NATO-nun yeddi ölkəsi Ukraynanın alyansa qoşulmasının əleyhinədir və əksər Avropa ölkələri qısa müddətdə bu təşəbbüsü dəstəkləməyəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "Politico" nəşri yazıb. Yüksək rütbəli ABŞ rəsmisi nəşrə bildirib ki, ABŞ prezidenti Co Bayden NATO-nun güclənməsinə və genişlənməsinə kömək etsə də, onun administrasiyası hesab edir ki, "Avropa paytaxtlarının əksəriyyəti qısa müddətdə NATO-ya doğru gedişi dəstəkləməyəcək".

Həmsöhbət əlavə edib ki, Kiyevin bundan sonra alyansa hər hansı dəvəti ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində islahatların aparılması ilə bağlı olacaq.

"Politico"ya danışan ABŞ və NATO-nun dörd rəsmisi və diplomatı qeyd edib ki, Almaniya və ABŞ Volodimir Zelenskinin Ukraynanı bloka qoşulmaq üçün təcili dəvət çağırışına ayaqlarını sürükləyən əsas dövlətlərdir.

Qeyd olunur ki, Belçika, Sloveniya və İspaniya kimi ölkələr ABŞ və Almaniyanın arxasında "gizlənir" və Kiyevin NATO-ya üzv olması ehtimalını qəbul etmək istəmirlər. Başqa bir məmur bu ölkələrin ideyanı mücərrəd şəkildə dəstəklədiyini, lakin reallaşmaya yaxınlaşarsa, daha açıq şəkildə ona qarşı çıxacaqlarını söyləyib.



Həmçinin göstərilir ki, Macarıstan və Slovakiya Ukraynanı alyansa dəvət etmək ideyasını açıq şəkildə rədd edir, Baltikyanı ölkələr və Polşa isə buna çox həvəslidir.

***Gülayə Mecid***

# "Ukrayna Rusiyanı təhdid etmək üçün istifadə olunur" - Putin

***"Ukrayna Rusiyanın təhlükəsizliyinə kritik təhdidlər yaratmaq üçün istifadə olunur".***



"Unikal" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin BRİKS-in XVI sammitinin autriç formatında keçirilən plenar sessiyası zamanı bildirib.

Putin qeyd edib ki, Rusiyanın əleyhdarları ölkənin həyati maraqlarına, rusdilli insanların hüquqlarının pozulması ilə bağlı ədalətli narahatlıqlara məhəl qoymur, həmçinin ölkəni strateji məğlubiyyətə uğratmaq məqsədini gizlətmirlər.

O əlavə edib ki, düşmənlərin Rusiyaya zərər vurmaq istəkləri illüziya hesablamalardır və bunu yalnız ölkənin tarixini bilməyənlər edə bilər. Həmçinin, dost olmayan dövlətlər rus xalqının əsrlər boyu "saxtalanmış" birliyini, möhkəmliyini və birliyini nəzərə almır.

***Gülayə Mecid***

# "Sülh sazişinin bağlanması üçün əlimizdən gələni edirik" - Rubinyan

***Biz sülh sazişinin bağlanması üçün əlimizdən gələni edirik.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan deyib. O, həmçinin blokadanın bir anda aradan qaldırılması üçün əllərindən gələni etdiklərini bildirib.

Rubinyan xatırladıb ki, bu yaxınlarda Ermənistan və Azərbaycanın xarici işlər nazirləri İstanbulda görüşüblər: "İndi sülh sazişinin imzalanmasını mümkün etmək üçün cəhdlər edilir və biz bu istiqamətdə hər şeyi edirik".

Spikerin müavini "hansısa mərhələdə danışıqlarda vasitəçiyə ehtiyac yarana bilərmi?" sualına belə cavab verib: "Hər şey mümkündür, lakin indiki mərhələdə danışıqlar ikitərəfli xarakter daşıyır. Əvvəldən xarici işlər nazirləri səviyyəsində danışıqların formatı ikitərəfli olub. Faktiki danışıqlar zamanı tərəflər otaqda tək olublar. Formatın nə vaxtsa dəyişə biləcəyini istisna edə bilmərəm, amma indiyə qədər belə olub. Məsələ praqmatizmdə və praktiklikdədir".

***Ağarza Elçinoğlu***

## Şimali Koreyanın göndərdiyi zibil balonu Seulda prezident ofisinə düşdü

***Şimali Koreyanın göndərdiyi zibil dolu hava şarı Cənubi Koreyada prezident ofisinin binasına düşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Cənubi Koreya Prezidentinin Təhlükəsizlik Xidməti (PSS) açıqlama verib.

Açıqlamada, Pxenyanın göndərdiyi zibil daşıyan şarın havada partlayaraq prezident ofisinin binasına düşdüyü və tullantılar üzərində aparılan ekspertizalarda heç bir təhlükəli maddənin aşkar edilmədiyi bildirilib.

***Zərifə Nağıyeva***

# Çempionlar Liqasının 1 oyununda 3 qol ləğv edildi



***Çempionlar Liqasının Liqa mərhələsinin 3-cü turunda keçirilən "Benfika" - "Feyenoord" matçı ləğv edilən qollar və VAR qərarları ilə diqqət çəkib.***

QOL.az xəbər verir ki, sözgedən oyunu Türkiyədən olan hakimlər briqadası idarə edib. Referi Halil Umut Meler olub. VAR hakimi funksiyasını isə ingiltərəli Devid Kut yerinə yetirib.

H.Umut Meler matçda 3 qolu ləğv edib. Oyunun 24-cü dəqiqəsində "Feyenoord"dan Ayase Ueda hesabı açsa da, Devit Kut Halil Umut Meleri monitora baxmağa dəvət edib. Referi videotəkrarı izlədikdən sonra qolu qeydə almayıb. Buna səbəb kimi Uedanın qol vurmazdan əvvəl rəqib futbolçu Nikolas Otamendiyə qarşı qaydanı pozması göstərilib.

32-ci dəqiqədə "Benfika"dan Anhel Di Mariya özünə qarşı qayda pozuntusu olduğunu düşünərək penalti qərarı gözləyib. Amma H.Umut Meler həmin epizodla bağlı ofsayd qərarı verib.

41-ci dəqiqədə "Benfika"dan Vagnelis Pavlidis topu rəqib qapısından keçirib. Lakin qol vurulmazdan əvvəl "Benfika"nın türk futbolçusu Kerem Aktürkoğlunun oyundankənar vəziyyətdə olması səbəbi ilə qol ləğv edilib.

Həmçinin 58-ci dəqiqədə "Feyenoord"un oyunçusu Gernot Traunerin qolu da ofsayd səbəbindən qeydə alınmayıb.

Qeyd edək ki, sözügedən görüş "Feyenoord"un 3:1 hesablı qələbəsi ilə başa çatıb. "Benfika"nın yeganə qolunu isə Türkiyə millisinin üzvü Kerem Aktürkoğlu vurub.

# Leroy Corc hollandlara "Qarabağ"dan danışdı



***Niderlandın NOS agentliyi UEFA Avropa Liqasının Liqa mərhələsinin 3-cü turunda bu gün keçiriləcək "Qarabağ" - "Ayaks" oyunu öncəsi Ağdam klubu haqda yazı hazırlayıb.***

QOL.az xəbər verir ki, yazıda əvvəlcə "Qarabağ"ın təmsil olunduğu Ağdam şəhərinin Ermənistan odusu tərəfindən işğal olunması nəticəsində klubun uzun müddət çətinliklə fəaliyyət göstərməsi qeyd olunub. Həmçinin yazıda "Qarabağ"ın niderlandlı sabiq futbolçusu Leroy Çorcun fikirlərinə də yer verilib.

Yazıda qeyd edilir: "Ayaks" bu axşam avrokuboklarda 10 ildir ki, adından söz etdirən "Qarabağ"la qarşılaşacaq. Klub Qarabağ bölgəsində uzun müddətdir davam edən münaqişə nəticəsində doğma Ağdamdan uzaq düşərək paytaxt Bakıda məskunlaşıb. Bir vaxtlar əhalisinin sayına görə Vaqeninqenlə (Niderlandda şəhər - red.) müqayisə oluna bilən Ağdam indi xəyallar şəhəridir.

Leroy Corc 2013-2015-ci illərdə "Qarabağ"da oynayıb və komandanın uğur hekayəsinin yaranma mərhələsini yaşayıb. Hücumçu klubun o vaxtdan indiyə qədər nə qədər irəli getdiyini bilir. Corcun "Qarabağ"da çıxış etdiyi ilk aylarda klubun hələ paytaxtda öz bazası yeri yox idi. Məşq üçün müxtəlif meydançalara üz tuturdular. "Həqiqətən həftəlik proqram yox idi. Harada və nə vaxt məşq edəcəyimiz çox vaxt qeyri-müəyyən idi" - deyə Leroy Corc açıqlamasında bildirib.

2013-2015-ci illərdə "Qarabağ"da çıxış edən Leroy Corc komandanın avrokuboklarda azarkeş dəstəyinin möhtəşəm olduğunu, yerli çempionatda isə bunun tam əksi baş verdiyini bildirib: "Biz avrokubok matçlarını 20-30 min tamaşaçı qarşısında oynayırdıq. Bu oyunlarda atmosfer əla olurdu. Yerli çempionatda isə 100-dən çox insan olsa, sevinərdik. Bunun necə mümkün olduğunu soruşdum. "Kaş biləydik" dedilər".

L.Corc "Qarabağ"ın irəli getməsində baş məşqçi Qurban Qurbanovun böyük əməyi olduğunu bildirib: "O, komandaya vaxtilə çatışmayan nizam-intizamı gətirdi. Onun aydın baxışı var idi. Bu, klubun sürətlə böyüməsinə imkan verdi. Qurban Qurbanov komandasını həmişə, hətta kağız üzərində daha güclü sayılan rəqiblərə qarşı da hücum planı ilə meydana çıxarıdı".

Komanda Avropa Liqasında da Corcun qeyd etdiyi kimi, hücum futboluna üstünlük verir. "Qarabağ" ilk iki maçtda ("Tottenhem" - 0:3, "Malmö" - 1:2) məğlub olsa da, hər iki oyunda daha çox topa sahib olub və qapıya rəqibdən daha çox zərbə endirib.

# "Barselona" "Bavariya"nı məğlub etdi

***UEFA Çempionlar Liqasının əsas mərhələsinin III turuna yekun vurulub.***

"Unikal" xəbər verir ki, azarkeşlər son oyun günündə 9 qarşılaşmaya şahidlik ediblər.

Günün ən maraqla gözlənilən görüşü İspaniyada keçirilib. "Barselona" evdə "Bavariya"nı (Almaniya) 4:1 hesabı ilə məğlub edib.

"Mançester Siti" komandası isə doğma meydanda Çexiya "Sparta"sının qapısında 5 cavabsız top keçirib.

**UEFA Çempionlar Liqası, Liqa mərhələsi III tur**

"Atalanta" (İtaliya) - "Seltik" (Şotlandiya) - 0:0

"Brest" (Fransa) - "Bayer" (Leverkuzen, Almaniya) - 1:1

"Mançester Siti" (İngiltərə) - "Sparta" (Çexiya) - 5:0

"Leyptsiq" (Almaniya) - "Liverpul" (İngiltərə) - 0:1

"Barselona" (İspaniya) - "Bavariya" (Almaniya) - 4:1



"Atletiko" (İspaniya) - "Lill" (Fransa) - 1:3

"Benfika" (Portuqaliya) - "Feyenoord" (Niderland) - 1:3

"Zaltsburq" (Avstriya) - "Dinamo" (Zaqreb, Xorvatiya) - 0:2

"Yanq Boys" (İsveçrə) - "İnter" (İtaliya) - 0:1

Qeyd edək ki, Çempionlar Liqasının əsas mərhələsinin IV turuna noyabrın 5-də start veriləcək.

# Azərbaycan millisi FIFA reytinqində 5 pillə geriləd



***FIFA milli komandaların oktyabır ayına olan reytinq cədvəlini açıqlayıb.***

"Unikal" AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, Fernandu Santuşun baş məşqçisi olduğu Azərbaycan yığması beş pillə geriləyib.

Aktivində 1161.8 xalı olan komanda 118-ci sıraya enib.

Qeyd edək ki, siyahıya son dünya çempionu Argentina millisi (1883,5) rəhbərlik edir.

# Təbriz "Traktor"u Asiya Çempionlar Liqasında qələbə qazandı



***İranı təmsil edən Asiya Çempionlar Liqasında təmsil edən Təbrizin "Traktor" klubu qələbə qazanıb.***

"Unikal" xəbər verir ki, "Traktor" klubu Asiya Çempionlar Liqasının 2-ci mərhələsi çərçivəsində Düşənbədə Tacikistanın "Rövşən" komandası üz-üzə gəlib.

"Traktot" klubu "Rövşən" komandasını 3-1 hesabı ilə məğlub edib.

Xatərladaq ki, Təbriz şəhərini futbol səhnəsində təmsil edən "Traktor" komandasını xorvatiyalı məşqçi Draqan Skoçiç idarə edir.

# Benzema Vinisusun "Qızıl top" almasını istəyir



***"Əl-İttihad"ın futbolçusu Karim Benzema "Real"ın oyunçusu Vinisus Juniorun paylaşımına maraqlı şərh yazıb.***

O, braziliyalı oyunçunun "Qızıl top"a layiq olduğunu bildirib.

Xatırladaq ki, Vinisus Çempionlar Liqasında Borussiya" ilə keçirilən oyunda het-trikə imza atıb. Qarşılaşmanın ən yaxşısı seçilən futbolçunun bununla bağlı paylaşımına məşhur futbolçular şərh yazıb.

Qeyd edək ki, bir müddət öncə qızıl topun 24 yaşlı futbolçuya verilməsi ilə bağlı xəbərlər yayılmışdı.

# "Mançester Siti"dən ÇL tarixinin rekordu



***"Mançester Siti" Çempionlar Liqasında yeni rekord müəyyənləşdirib.***

QOL.az xəbər verir ki, komanda buna Liqa mərhələsinin 3-cü turunda Çexiya "Sparta"sına qalib gəlməklə (5:0) nail olub.

Nəticədə "şəhərlilər" ÇL-də məğlubiyyətsiz oyunlar seriyasını 26-ya çatdırıb. Komanda son dəfə 2021/22 mövsümündə yarımfinalın cavab görüşündə "Real"a uduzub - 1:3.

Ötən mövsüm 1/4 finalda "Mançester Siti" yenə "Real" səddini aşa bilməyib. Lakin bu dəfə komanda oyunda yox, penaltilər seriyasında məğlub olub.

ÇL-də indiyədək ən uzun məğlubiyyətsizlik seriyası "Mançester Yunayted"ə məxsus idi. Şotlandiyalı baş məşqçi Aleks Ferqyusonun rəhbərliyi altında "qırmızı şeytanlar" ardıcıl 25 matç uduzmamışdılar.

Qeyd edək ki, "Mançester Siti" 3 turdan sonra Liqa mərhələsinin sıralamasında 7 xalla 5-cidir.